# 1 356 yeni yoluxma faktı qeydə alınıb

17 nəfər vəfat edib, 2 651 nəfər sağalıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 356 yeni yoluxma faktı qeydə alınıb, 2 651 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 476 409 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 441 731 nəfər müalicə olunaraq sağalıb, 6 370 nəfər vəfat edib, aktiv xəstə sayı 28 308 nəfərdir.*

## Distant təhsil tələbi ləğv edilib



**Distant təhsil tələbi ləğv edilib və əyani təhsilə keçid müəyyən edilib.**

Bu, Nazirlər Kabineti "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nda etdiyi dəyişikliklərə verdiyi izahda bildirilib.

*Qeyd olunub ki, təhsil alanların dərslərdə əyani iştirakının könüllülük prinsipi əsasında olması ləğv edilib.*



# Danışıqlar baş tutub

İrakli Qaribaşvili: "Gürcüstan regionda sülhməramlı funksiyasını yerinə yetirməyə hazırdır"

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında danışıqlar baş tutub, onlar Cənubi Qafqazdakı vəziyyəti müzakirə ediblər. Sputnik Azərbaycan xəbər verir ki, bu barədə məlumatı Gürcüstanın Nazirlər Kabineti yayıb.**

"Regionda inkişaf edən hadisələrə toxunulub. İrakli Qaribaşvilinin sözlərinə görə, Gürcüstanın əsas məqsədi regionda sülh və sabitliyi qorumaqdır və ölkə Qafqaz regionunda uzunmüddətli sülh və sabitlik üçün sülhməramlı funksiyasını yerinə yetirməyə hazırdır", - deyə məlumatda bildirilir.

Hər iki ölkənin lideri eyni zamanda Azərbaycanın 15 erməni əsgərini minalanmış sahələrin xəritələri qarşılığında Ermənistana verməsi məsələsinə də toxunublar. Proses iyun ayında Gürcüstanın vasitəçiliyi ilə baş tutub. Məlumatda vurğulandığı kimi, Qaribaşvili və Ərdoğan bu mübadilənin "qonşular arasında əməkdaşlıq üçün yaxşı bir təməl olduğunu" qeyd ediblər.


❒ № 172 (5453), 2021-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 sentyabr 2021-ci il (cümə axşamı)




## Sülh və təhlükəsizliyə təhdidlər var

Ceyhun Bayramov: "Beynəlxalq ictimaiyyət revanşist meyllərə görə Ermənistana təzyiq göstərməlidir"

**"Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət Ermənistana revanşist yanaşmalardan əl çəkmək üçün təzyiq göstərməlidir ki, Ermənistan bunun əvəzinə davamlı sülh və inkişaf üçün unikal imkandan istifadə etsin.**

Bu sözləri Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov GUAM Xarici İşlər Nazirləri Şurasının 37-ci iclasının çıxışı zamanı deyib.

(səh.2)

## Müəllimlərin əmək haqqının yeni qaydada necə hesablanacağı məlum olub

**Təhsil Nazirliyi xüsusi karantin rejimi dövründə müəllimlərin əmək haqqının yeni qaydada necə hesablanacağına aydınlıq gətirib.**

Təhsil Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, hazırda yalnız əyani tədrisin həyata keçirilməsi nəzərdə tutulduğuna görə müəllimlərin əməkhaqqı ənənəvi formada hesablanacaq. Qeyd edək ki, Nazirlər Kabinetinin 21 sentyabr 2021-ci il tarixli qərarı ilə "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nda etdiyi dəyişikliyə əsasən, təhsil verənlərə əməkhaqqının hesablanmasında distant (məsafədən) formada tədris edilən dərs yükü nəzərə alınması (4.2.2) ilə bağlı bənd ləğv olunub.

# 1 il 6 aydan sonra...

## Orta məktəblərdə tədrisin tam bərpası böyük hadisədir



**Dünən ümumi təhsil müəssisələrinin I-IV sinifləri üzrə 22 sentyabr 2021-ci il tarixindən ənənəvi şəkildə tədrisə başlanılıb. Qeyd edilən siniflər üzrə 643 333 nəfər şagird ənənəvi tədrisə başlayıb.**

Təhsil Nazirliyindən verilən məlumata görə, 2021-2022-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrində ümumilikdə 1 589 829 şagirdin təhsil alacağı proqnozlaşdırılır. Ümumtəhsil məktəblərinin I sinfində 158 608, IX sinfində 132 881, XI sinfində isə 91 538 şagird təhsil alacaq. Respublika üzrə ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 117 176 şagirdin təhsilə cəlb olunacağı gözlənilir. 2021-2022-ci tədris ilində I-XI siniflərdə ilk dərslər "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunacaq. Yeni tədris ilinin ilk günündək 5 əsaslı təmir olunan, 17 yeni tikilən, 15 modul tipli məktəb istifadəyə verilib. Qeyd edək ki, sentyabrın 29-dan isə ümumi təhsil müəssisələrinin V-XI sinifləri üzrə, eləcə də məktəbdənkənar, peşə, orta ixtisas və ali təhsil müəssisələrində də ənənəvi şəkildə tədrisə başlanılacaq.

(səh.4)



## XİN başçılarının həmsədrlərlə görüşü planlaşdırılır

"Təmas baş tutsa, iki ölkə arasında normallaşma prosesinin praktiki olaraq konturları çəkilər"

**"Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü planlaşdırılır".**

"Report" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bildirib.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşərsə, iki ölkə arasında normallaşma prosesinin praktiki olaraq konturları çəkilər.

## Elnur Əşrəfoğlunun vəziyyəti ağır-stabil olaraq qalır



**Koronavirusa yoluxan Azərbaycan Cüdo Federasiyasının (ACF) baş katibinin müavini, tanınmış idman şərhçisi Elnur Əşrəfoğlunun son vəziyyəti açıqlanıb.**

"Yeni Klinika"dan verilən məlumata görə, tanınmış jurnalist Elnur Əşrəfoğlunun vəziyyəti ağır-stabil olaraq qalır:

"Fasiləsiz böyrək əvəzedici terapiya olunur və ECMO ilə orqanizm dəstəklənir".

*Qeyd edək ki, Elnur Əşrəfoğlu sentyabrın əvvəllərində koronavirusa yoluxub. Əvvəlcə ev şəraitində müalicə alan jurnalist daha sonra "Yeni Klinika"ya köçürülüb.*

# İran geri çəkilməsə, itirə bilər

Artıq regionda Tehranın Azərbaycandan asılılığı artıb



**Məlum olduğu kimi, İranın xarici işlər nazirinin müavini, Beynəlxalq və Siyasi Araşdırmalar Mərkəzinin direktoru Məhəmməd Kazım Səccadpur ölkəmizdə səfərdədir. O, araşdırma mərkəzlərinin üçtərəfli müzakirələrində iştirak etməkdən məmnunluğunu ifadə edib:**

"Bildiyiniz kimi, bu müzakirələrdə Azərbaycan, İran və Türkiyənin araşdırma mərkəzləri iştirak edir. Bizim hər birimizin arasında çox yaxşı iktirəfli münasibətlər var. Lakin biz düşünürük ki, həmçinin, üçtərəfli format üzərində də işləməliyik".

(səh.4)

## Qazax sakini minaya düşərək həlak olub



**Qazax sakini minaya düşərək həlak olub. Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.**

**Məlumata görə, Qazax rayon Xanlıqlar kənd sakini, 1988-ci il təvəllüdlü Mərdanov Məmməd rayonun Bala Cəfərli kəndində minaya düşərək həlak olub.**

**Faktla bağlı araşdırma aparılır.**



# Polad Həşimovun anası danışdı

Şəhid valideynləri və övladları Şuşada olub

**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin, Müdafiə Nazirliyinin dəstəyi və "Fire Land Production"ın təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları üçün "Mənim atam qəhrəmandır" layihəsinin növbəti silsilə tədbiri bu dəfə Şuşa şəhərində keçirilib.** Tədbirin məqsədi torpaqlarımız uğrunda canından keçən qəhrəmanları bir daha anmaq, onların övladlarına xalq qayğısının daimi olacağını bir daha hiss etdirmək, şəhid balalarının səmərəli istirahətini təşkil etmək olub.

(səh.5)

## Paşinyan Ukrayna və Gürcüstanın qapılarını döyür



Baş nazir Azərbaycanla yekun sülh sazişinin imzalanması prosesini Ukrayna və Gürcüstan üzərindən yürütməyə üstünlük verir

(səh.3)

## "Qiymətı artıranlar kimlərdir, məqsədləri nədir?"

Zahid Məmmədov:

"Milli Məclisdə bahalaşma ilə bağlı dinləmələr, müzakirələr təşkil edilməlidir"

(səh.3)





# Prezident İlham Əliyev BMT-də videomüraciət formatında çıxış edəcək

**Sentyabrın 14-də BMT Baş Assambleyasının (BA) növbəti, 76-cı sessiyası öz işinə başlayıb. Maldiv adalarının xarici işlər naziri Abdulla Şahid BMT BA-nın 76-cı sessiyasının prezidenti seçilib. Bununla da BMT BA-nın 75-a sessiyasının prezidenti Volkan Bozkırın (Türkiyə) səlahiyyətləri başa çatıb.**

Ənənəvi olaraq, sessiya çərçivəsində yüksəksəviyyəli ümumi müzakirələr keçiriləcək. Dövlət və hökumət başçılarının iştirakı nəzərdə tutulan ümumi müzakirələr sentyabrın 21-dən başlayıb və sentyabrın 27-dək davam edəcək.

Müzakirələrin əvvəlində BMT-nin Baş katibi Antonio Quterreş illik hesabatını təqdim edib. Hesabatda beynəlxalq sülh və təhlükəsizliyin qorunması, dayanıqlı inkişaf, insan hüquqlarının müdafiəsi və təşviqi, həmçinin digər önəmli məsələlərə toxunulur.

Pandemiya ilə əlaqədar bu il ümumi müzakirələr seqmentinin hibrid formada, yəni həm fiziki iştirak, həm də virtual (videomüraciət) formada olması nəzərdə tutulub. Builki ümumi müzakirələrin mövzusu belədir: "Ümid vasitəsilə müqavimətin gücləndirilməsi: COVID-19-dan sonra bərpa, dayanıqlığın yenidən qurulması, planetin ehtiyaclarının cavalandırılması, insan hüquqlarına hörmət və BMT-nin canlandırılması".

Ümumi müzakirələr BMT BA-nın ən önəmli seqmentlərindən biridir. Belə ki, qlobal platforma olan BMT BA-nın bu mötəbər kürsüsündən dövlət və hökumət başçıları istər milli, istərsə də beynəlxalq gündəlikdə duran məsələlərlə bağlı öz baxışlarını, dövlətlərinin siyasətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırırlar.

Müzakirələrdə Azərbaycan Prezident İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, ABŞ Prezident Cozef Baydenin, Çin Xalq Respublikasının Sədri Si Cinpinin və bir çox digər dövlət və hökumət başçılarının çıxışları gözlənilir. Bu il müzakirələr zamanı dövlət və hökumət başçıları tərəfindən əsasən COVID-19 pandemiyası, beynəlxalq sülh və təhlükəsizlik, Əfqanıstanda vəziyyət, dayanıqlı inkişaf, iqlim dəyişikliyi və digər önəmli məsələlərə toxunulacağı gözlənilir.

Ümumi müzakirələr çərçivəsində sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciət formatında çıxışı nəzərdə tutulub. BMT BA-nın builki ümumi müzakirələri ölkəmiz üçün xüsusi önəm kəsb edir. Belə ki, Azərbaycanın Vətən müharibəsində şanlı Qələbəsindən sonra Prezident İlham Əliyev dünya ictimaiyyətinə Müzəffər Ali Baş Komandan kimi müraciət edəcək, qalib Azərbaycan xalqını təmsil edəcək.

# Sülh və təhlükəsizliyə təhdidlər var

## Ceyhun Bayramov: "Beynəlxalq ictimaiyyət revanşist meyllərə görə Ermənistana təzyiq göstərməlidir"



**"Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət Ermənistana revanşist yanaşmalardan əl çəkmək üçün təzyiq göstərməlidir ki, Ermənistan bunun əvəzinə davamlı sülh və inkişaf üçün unikal imkandan istifadə etsin."**

**Bu sözləri Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov GUAM Xarici İşlər Nazirləri Şurasının 37-ci iclasında çıxışı zamanı deyib.**

*BMT Baş Assambleyası 76-cı sessiyası çərçivəsində Nyu-Yorkda keçirilən GUAM Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclası 2020-ci ildə COVID-19 pandemiyası ilə bağlı qapanmadan sonra ilk canlı toplantıdır.*

"Azərbaycan həm regional, həm də bölgələrarası səviyyədə sülhün, təhlükəsizliyin, sabitliyin və rifahın təmin edilməsinə yönəlmiş "GUAM+" formatı çərçivəsində genişləndirilmiş əməkdaşlığın güclü tərəfdarı olaraq qalır. Azərbaycan bu gün imzalanması planlaşdırılan, lakin təəssüf ki, Xarici İşlər Nazirləri Şurasının növbəti iclasına təxirə salınan GUAM-İsrail Birgə Bəyannaməsini alqışlayır. Tərəfdaşlarımızla güclü əlaqələrimiz var, lakin digər tərəfdaşlarla əməkdaşlıq gündəmlərini yenidən nəzərdən keçirmək və işimizi ümumi prioritetlər əsasında tərtib etmək baxımından bütün tərəfdaşlarımızla əməkdaşlığı gücləndirmək üçün əlavə səylərə ehtiyac var.

GUAM Parlament Assambleyasının 13-cü sessiyasının kommünikesi beynəlxalq və regional parlamentlərarası assosiasiyaları ilə əməkdaşlığı davam etdirmək niyyətini bir daha təsdiq edir. Bu xüsusda, GUAM PA, digər dövlətlərlə ikitərəfli və çoxtərəfli səviyyədə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsini milli parlamentlər arasında dialoqu gücləndirmək, onların şəbəkələrini dərinləşdirmək və etimad mühiti yaratmaq vasitəsi olaraq nəzərdən keçirə bilər", - Azərbaycan XİN rəhbəri bildirib.

Onun fikrincə, ümumi maraq kəsb edən sahələrdə BMT təşkilatları ilə sıx əməkdaşlığın qurulması dayanıqlılığı təmin etmək üçün milli səyləri gücləndirəcək və ölkələrimizin çağırışlara daha yaxşı cavab verməyə hazırlığını təmin edəcək. "Bu baxımından layihələrin müvafiq beynəlxalq və regional təşkilatlarla birgə həyata keçirilməsinə daha çox diqqət yetirilməlidir.

Beynəlxalq təşkilatlar çərçivəsində maraqlarımızın irəlilədilməsində fəal əməkdaşlıq və qarşılıqlı dəstək vacib olaraq qalır. Əldə etdiyimiz müsbət təcrübəyə əsaslanmalıyıq. Bu baxımdan, GUAM üzv dövlətlərini Azərbaycanın irəli sürdüyü minaların insan hüquqlarına təsiri ilə bağlı bəyanata qoşulmağa və bununla bağlı Cenevrədəki daimi nümayəndəliklərinə təlimat verməyə dəvət edirik. Birgə bəyanat, Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının 48-ci sessiyasının gündəliyinin 4-cü bəndi çərçivəsində 24 sentyabr tarixində həmfikir ölkələr adından veriləcək".

**Azərbaycanlı nazir vurğulayıb ki, münaqişənin həlli Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşması ilə regional əməkdaşlıq, inkişaf və rifah üçün yeni imkanlar açır:** "10 Noyabr 2020-ci il tarixli birgə bəyanat, xüsusilə bölgədə kommunikasiyaların açılmasını nəzərdə tutan 11 yanvar 2021-ci il tarixli üçtərəfli Azərbaycan-Rusiya-Ermənistan bəyanatı ilə tamamlandı.

Azərbaycan, Ermənistan və Rusiya bölgədə nəqliyyat kommunikasiyalarının açılması üçün konkret istiqamətlər üzərində işləməyə başladılar. Əlaqələrin yenidən canlandırılması Ermənistan və Azərbaycan üzərindən ticarət və nəqliyyatı əhəmiyyətli dərəcədə sürətləndirəcək və bu həm bu ölkələrə, həm də tərəfdaşlarımıza fayda verəcək. Bu, normallaşmanın əhəmiyyətli bir faktoru olacaq və bölgədə və ondan kənarda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün şəraitin yaradılmasında müsbət rol oynayacaq.

Kommunikasiyaların açılışı məsələsi ilə məşğul olan üçtərəfli işçi qrupu bölgədə konkret istiqamətlər üzərində işə başladı. Kommunikasiyaların açılmasının mühüm və mümkün bir irəliləyiş ola biləcəyinə baxmayaraq, Ermənistan danışıqları əngəlləmək və gecikdirmə taktikasına əl ataraq irəliləyişin qarşısını almağa cəhd edir. Biz konstruktiv olaraq prosesdə iştirak edirik və məsələ ilə məşğul olmaqda davam edirik. Aydındır ki, kommunikasiyaların yenidən canlandırılması həm bu ölkələrin, həm də tərəfdaşlarımızın xeyrinə Ermənistan və Azərbaycan üzərindən ticarət və nəqliyyatı əhəmiyyətli dərəcədə artıracaqdır. Bu, normallaşmanın əhəmiyyətli bir faktoru olacaq və bölgədə və ondan kənarda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün şəraitin yaradılmasında müsbət rol oynayacaq".

"Azərbaycanın azad edilmiş ərazilərində bərpa, yenidənqurma və reinteqrasiya işləri sürətlə gedir. Münaqişədən sonrakı yenidənqurma anlayışımız xalqımızın ehtiyaclarına və prioritetlərinə əsaslanır. Məcburi köçkünlərin ləyaqətli yaşayışı üçün lazım olan siyasi, hüquqi, iqtisadi və sosial şəraitin təmin edilməsi əsas prioritetlərimizdəndir. Azərbaycan etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları ilə eyni hüquq və azadlıqları təmin edərək münaqişədən təsirlənmiş ərazilərdə yaşayan erməni əsilli vətəndaşlarını yenidən öz siyasi, sosial və iqtisadi məkanına reinteqrasiya etmək əzmindədir.

Azad edilmiş ərazilərin mina ilə kütləvi çirklənməsi Azərbaycan Hökumətinin başladığı genişmiqyaslı bərpa və yenidənqurma planlarının həyata keçirilməsinə ciddi şəkildə mane olur. Ən əsası, bu, yüz minlərlə məcburi köçkünün təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə geri dönmək hüququnun həyata keçirilməsinə təsir göstərir.

Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət Ermənistana revanşist yanaşmalardan əl çəkmək üçün təzyiq göstərməlidir ki, Ermənistan bunun əvəzinə davamlı sülh və inkişaf üçün unikal imkandan istifadə etsin. Üçtərəfli bəyanatların tam şəkildə həyata keçirilməsinin, müharibənin bütün nəticələrini aradan qaldırmaq və bölgədəki bütün ölkələr və onların xalqları üçün firavan bir gələcək qurmaq yolunda alternativi yoxdur.

Beynəlxalq hüququn tətbiqi sülh, təhlükəsizlik və inkişaf üçün bir şərtdir. Təəssüf ki, GUAM-a üzv dövlətlərin ərazilərində həlli uzanmış münaqişələr sülh və təhlükəsizliyə təhdid yaratmağa davam edir və bu münaqişələr suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll edilməlidir.

Sonda qarşılıqlı fayda və rifah naminə tərəfdaşlığımızın irəli aparılmasında marağımızı bir daha ifadə edirəm. İnanıram ki, biz mövcud və yaranacaq imkanlardan istifadə etməli və təşkilatımızı daha uğurlu etməliyik. Bugünkü görüş üçün bir daha Gürcüstan sədrliyinə və hörmətli Baş katib Altay Əfəndiyevin rəhbərlik etdiyi GUAM Katibliyinə təşəkkür edirəm və hamımıza Nyu-Yorkda çox məhsuldar bir həftə diləyirəm", - C.Bayramov yekunlaşdırıb.

**Aynurə**

# Dünya Qarabağın haqq və qalib səsini bir daha eşitdi

İsmayıl Qocayev

**Prezident Rəcəb Tayyib Ərdoğan BMT-nin Baş Assambleyasında çıxışı zamanı mühüm məqamlara toxunub. Qafqazda sülh və sabitlik baxımdan yaxın müddətdə önəmli addımlar atıldığını xatırladan Ərdoğan yüksək tribunadan 44 günlük müharibədən və Azərbaycanın haqlı davasından da söz açıb:**

"Azərbaycan qanuni müdafiə haqqından istifadə edərək, BMT-nin Təhlükəsizlik Şurasının tətbiq olunmayan qərarlarını həyata keçirməklə öz torpaqlarındakı işğala son qoyub. Bu hadisə regionda daimi sülhün bərpasına fürsət pəncərələrinin açılmasına da imkan yaradıb. Türkiyə tərəflərin atacağı hər müsbət addımı dəstəkləməkdə qərarlıdır". Ərdoğan Krım məsələsinə də toxunub və Ankaranın mövqeyinin dəyişməz olduğunu xatırladıb: "Biz, ilhaqını tanımadığımız Krım da daxil olmaqla, Ukraynanın ərazi bütövlüyünün və suverenliyinin qorunmasına əhəmiyyət veririk. Krım tatarlarının hüquqlarının müdafiəsi ilə bağlı səylər gücləndirilməlidir". Türkiyə lideri müsəlman uyğur türklərinin əsas hüquqlarının Çinin ərazi bütövlüyü baxımından qorunması üçün daha çox səy göstərilməli olduğuna inandıqlarını ifadə edib. Ərdoğan 74 illik Keşmir probleminin də tərəflər arasında dialoq yolu ilə və BMT-nin müvafiq qətnamələri çərçivəsində həll edilməsinə tərəfdar olduğunu söyləyib. Türkiyə lideri iki ildir dünyanı cənginə almış pandemiya bəlasından da bəhs edib. Vurğulayıb ki, insanlıq 2 ildir ağrılı günlər yaşayır. Ərdoğanın sözlərinə görə, on milyonlarla insanın virusun pəncəsində olduğu bir vaxtda peyvənd milliyətçiliyinin hələ də davam etdirilməsi insanlıq üçün biabırçılıqdır. Prezident Əfqanıstan məsələsinə də toxunub və bildirib ki, orada ən qısa zamanda sülh, sabitlik və təhlükəsizlik qurulacaq və Əfqanıstan xalqı sülhə qovuşacaq: "Türkiyə olaraq bu çətin günlərdə Əfqanıstan xalqına qarşı qardaşlıq borcumuzu yerinə yetirməyə davam edəcəyik". Yüz minlərlə insanın ölümünə və milyonların ölkəni tərk etməsinə səbəb olan Suriyadakı humanitar faciənin bütün dünyanın gözü qarşısında 10-cu ilini geridə qoyduğuna diqqət çəkən Ərdoğan Türkiyənin bir tərəfdən 4 milyon suriyalıya qucaq açarkən, bölgədə qan və gözyaşı axıdan terror təşkilatlarına qarşı da sahədə mübarizə apardığını dilə gətirib: "Beynəlxalq birlik Suriya böhranının daha 10 il davam etməsinə icazə verə bilməz. Suriya xalqının gözləntilərinə cavab verəcək şəkildə, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 2254 saylı qətnaməsinə əsaslanaraq, bir siyasi həll yolu tapmaq vacibdir". Türkiyə rəhbəri bölgədə qeyri-sabitliyi dərinləşdirən, sülh və təhlükəsizliyi təhdid edən ən əhəmiyyətli problemlərdən birinin də İsrail-Fələstin münaqişəsi olduğunu söyləyib: "Fələstin xalqına zülm davam etdikcə Orta Şərqin davamlı sülh və sabitliyə nail olması qeyri-mümkündür. Bu səbəbdən işğal, ilhaq və qanunsuz məskunlaşma siyasətlərinə dərhal son qoyulmalıdır. Birləşmiş Millətlər Təşkilatının 1947-ci il qətnaməsinə əsaslanaraq Qüdsün beynəlxalq statusunun pozulmasına, Məscidül-Həram məhrəmiyyətinə və Fələstin xalqının hüquqlarına qarşı pozuntuların əleyhinə səsimizi ucaltmağa davam edəcəyik.



"Təmsil olunmadığımız yerdə müdafiəçimiz qardaş Türkiyədir. Ərdoğan bütün dünyaya bir daha elan etdi ki, Azərbaycan öz təbii haqqından istifadə edərək torpaqlarını işğaldan azad edib"

Sülh prosesi və iki dövlətli həll baxışına yubanmadan fəallıq qazandırılmalıdır". Qardaş ölkə rəhbəri Kıbrıs məsələsinin ədalətli, daimi və davamlı həllinin yalnız nəticə yönümlü və realist bir yanaşma ilə mümkün ola biləcəyini vurğulayıb: "BMT-nin bərabər qəbul etdiyi adadakı iki xalqdan birinin lideri sizə müraciət edə bilsə də, digər liderin bu platformada səsini eşitdirə bilməməsi ədalətli deyil". Ərdoğan bölgədə Şərqi Aralıq dənizinin ən uzun sahilinə sahib olan Türkiyəni görməməzlikdən gələn anlayışdan əl çəkməyin vacib olduğunu vurğulayıb. O, "Dünya 5-dən daha böyükdür" ifadəsini bir daha dilə gətirib.

Hər zaman olduğu kimi Türkiyə prezidentinin açıqlamaları dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilib. Qərb ölkələrinin media orqanları Ərdoğanın çıxışına geniş yer veriblər və ətrafında müzakirələr açıblar.

**Qardaş ölkə başçısının BMT kürsüsündən çıxışının detallarını "Şərq"ə təhlil edən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Ərdoğanın nitqində dünyanın aparıcı güclərinə mühüm mesajlar var idi. Ekspertin sözlərinə görə, Ərdoğan "beş ölkənin" nəzarət etdiyi və yönəltdiyi dünyanın nə qədər ədalətsizcəsinə idarə olunduğunu göstərməyə çalışdı:** "Türkiyə lideri dəfələrlə "Dünya beşdən böyükdür" deyərək BMT-nin indiki işləmə mexanizminin yanlışlığını bəyan edib. Vurğulayıb ki, qurumun Təhlükəsizlik Şurasının tərkibi mütləq genişlənməlidir. Bu məsələ Avropa ölkələrinin də marağındadır. Məsələn, Almaniya TŞ-də təmsil olunmaq niyyətindədir. Dəfələrlə qeyd olunub ki, BMT-nin səsvermə mexanizmi dəyişməlidir. İndiki səsvermə ədalətsizdir və ölkələrin səs hüquqlarının heç bir əhəmiyyəti yoxdur. Çünki TŞ istədiyi vaxt hansısa qərara veto qoymaq səlahiyyətinə malikdir. Ərdoğanın BMT-dəki çıxışı mövcud qlobal idarəetməyə qarşı idi və Türkiyə rəhbəri tam haqlı olaraq öz təkliflərini irəli sürürdü. Əgər pandemiya ümumi bəladırsa, onunla mübarizə birgə aparılmalı və vaksinlər ölkələr arasında ədalətli paylanmalıdır. Bu məqama Azərbaycan dövlət başçısı da bir neçə dəfə toxunub. Əslində vaksin üzərindən siyasi mübarizə gedir. Ərdoğan məhz həmin məqama diqqəti yönəltməyə çalışdı".

*Ekspertə görə, qardaş ölkə liderinin Qarabağ savaşı və Azərbaycanın haqlı mübarizəsini yenidən gündəmə gətirməsi gözlənilən idi:* "Ərdoğan əksər beynəlxalq tribunalarda Azərbaycandan bəhs edib. Biz davamlı olaraq qardaş Türkiyədən bu dəstəyi görmüşük. Şübhə yox ki, indiki məqamda 44 günlük müharibənin xatırladılması təsadüfi deyildi. Qərb ölkələrində, xüsusən Fransada yenidən Minsk qrupu, "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi terminləri gündəmə gətirilir. Prosesin davamı Qarabağdakı ermənilərin öz "müqəddəratını" həll etmək məsələsidir. Bu, Azərbaycana təzyiq metodlarının işə salınmasıdır və arxasında erməni lobbisinin dayanması heç kimə sirr deyil. Təmsil olunmadığımız yerdə müdafiəçimiz qardaş Türkiyədir. Ərdoğan bütün dünyaya bir daha elan etdi ki, Azərbaycan öz təbii haqqından istifadə edərək torpaqlarını işğaldan azad edib. BMT-nin qətnamələrinin də xatırladılması TŞ-yə mesaj idi ki, sizin 30 ildə etmədiyinizi Azərbaycan 44 gündə reallaşdırdı. Ərdoğanın çıxışı müəyyən risklərə qarşı önləyici addımlar sayılmalıdır".

**A.Nərimanlı bəyan edib ki, Ərdoğan uyğur türkləri məsələsini çox ustalıqla gündəmə gətirdi:** "Onun çıxışına nəzər yetirsək, görərik ki, Çinə qarşı hansısa ifadə yoxdur. Vurğuladı ki, uyğur türklərinin problemləri Çinin ərazi bütövlüyünə uyğun həll olunmalıdır. Yeni geosiyasi vəziyyətdə məsələnin bu cür həlli rəsmi Pekinə də sərf edir. Hamı qəbul edir ki, dünya təkqütblü olmaqdan çıxıb. Artıq dünyada ABŞ-la yanaşı Çin qütbü də var. Türkiyə Amerikanın müttəfiqi, NATO ölkəsi kimi tanınsa da, öz müstəqil xarici siyasəti ilə seçilir. Son zamanlarda Ankara-Pekin arasında yaxınlaşma da bundan xəbər verir. Ərdoğanın çıxışı da Çinə mesaj kimi dəyərləndirilə bilər. Türkiyə fərqindədir ki, Pekinlə əlaqələri sıxlaşdırarsa, uyğur türklərinə qarşı zülmün qarşısını ala bilər. Pekinin mesajı düzgün dəyərləndirəcəyindən əminəm".

**Həmsöhbətimizə görə, Türkiyə liderinin Krımla bağlı çıxışı da maraqla qarşılandı:** "Ankara-Moskva münasibətlərinə rəğmən, hər iki ölkə özlərinin "qırmızı xətt"lərini müəyyən ediblər. Ərdoğan dəfələrlə vurğulayıb ki, Krım məsələsində Ankaranın yanaşması dəyişməzdir. Gələn ay "Türk Dövlətləri Birliyi" elan edilməlidir. İnformasiyalara görə, 15 ölkə quruma müşahidəçi statusu almaq istəyir. Türkmənistanın da qoşulması ilə 6 dövlət daimi üzv olacaq. 15 ölkə isə türkdilli dövlətlər deyil və proses göstərir ki, onlardan biri Ukrayna ola bilər. Ərdoğanın BMT-də məhz Krımı gündəmə gətirməsi Ukraynaya mühüm jest sayılır və heç də təsadüfi deyil".

# "Qiymәti artıranlar kimlәrdir, mәqsәdlәri nәdir?"

## Zahid Məmmədov: "Milli Məclisdə bahalaşma ilə bağlı dinləmələr, müzakirələr təşkil edilməlidir"



"Əgər hansısa dövlət qurumu, yaxud şirkət qiymət artımı təklif edirsə, ilk növbədə həmin idarənin lüks həyatını araşdırmaq lazımdır. Bir çox qurumda istifadə olunmayan 50-dən çox avtomobil var. Hamısının istismar, saxlama xərcləri var"

**Gündəlik tələbat malları və ərzağın qiymətində ciddi artımlar müşahidə olunur. Vətəndaşlar demək olar ki, hər gün süni qiymət artımı ilə rastlaşdıqlarını deyirlər. Sosial şəbəkələrdə qiymətlərin bahalaşmasından şikayət edənlərin sözlərinə görə, ərzaq məhsullarının qiyməti 20-30 qəpik civarında mütəmadi artmaqdadır.**

Marketlərdə durum daha dəhşətlidir. Sanki market sahibləri istədikləri qiyməti özləri müəyyənləşdirir, satdıqları məhsulun dəyərini istədikləri formada qiymətləndirirlər. Bahalaşma əksər hallarda müşahidə olunsa da, müəyyən mövsümlərdə daha çox nəzərə çarpır. Hansısa məhsula tələbatın çoxluğunu görən bəzi işbazlar ərzaq məhsullarının qiymətini süni şəkildə qaldırırlar.

***Bazar və marketlərdə "od tutub yanan" qiymətlərlə bağlı "Şərq"ə ətraflı danışan iqtisad elmləri doktoru, professor Zahid Məmmədov deyib ki, ilk növbədə qiymət artımlarının səbəbləri araşdırılmalıdır. Professorun fikrincə, səbəblər aşkarlanarsa, süni qiymət artımının önünü almaq mümkün olar.***

**- Zahid müəllim, ərzağın tez-tez bahalaşması nəylə bağlıdır? Süni qiymət artımının qarşısını almaq üçün hansısa addımlar atmaq mümkündürmü?**

- Əvvəla qeyd edim ki, dövlət başçısı müşavirələrdə süni qiymət artımı ilə bağlı dəfələrlə iradlarını bildirib, ciddi xəbərdarlıq edib və müvafiq qurumlara öz göstərişlərini verib. Yəni problem ən yüksək səviyyədə gündəmə gətirilib. Bilirsiz, əgər qiymət artımı varsa, elmi cəhətdən ciddi əsaslandırılmalı və çıxış yolları axtarılmalıdır. Azərbaycanda qiymət siyasəti ilə məşğul olan dövlət qurumları və hər birinin ayrı-ayrılıqda şuraları mövcuddur. Bu məsələylə ciddi məşğul olunmalıdır. Qiymət bahalaşması ilə bağlı Milli Məclisin plenar iclaslarında ətraflı dinləmələr, müzakirələr təşkil edilməlidir. Bahalaşmanın səbəb və nəticələrini öyrənmək lazımdır. Dövlətimiz ərzaq, maliyyə və enerji təhlükəsizliyini təmin edib. O zaman sual olunur, qiyməti artıranlar kimlərdir və məqsədləri nədir? Səbəb nədirsə, çıxış yolu da ondadır. Məsələn, Türkiyədə ət məhsullarının qiymətində artım olanda, kənd təsərrüfatı naziri bəyan etdi ki, Avstraliyadan qoyun idxal edəcəklər. Qərardan sonra ət idxalçıları dərhal dövlətdən xahiş etdilər ki, buna ehtiyac yoxdur. Onlar qiymət bahalaşmasını dayandıracaqlarına və aşağı endirilməsi üçün yollar tapacaqlarına söz verdilər. Bütün problemlərdən çıxış yolu var. Qiymət artımı ən son həddir və qəbuledilməzdir. Koreyada böhran olanda ölkədəki bir qrup şirkətlərə təklif etdilər ki, problemin həlli üçün qiymətləri artırsınlar. Ancaq heç kim buna getmədi. Hətta bir şirkətin rəhbərliyini 4 dəfə dəyişsələr də, istədikləri qərar verilmədi. 5-ci rəhbər isə qiymət artımı əvəzinə problemdən çıxış yolunu tapdı. Müxtəlif ictimai yerlərdə elanlar verildi və əhalidən xahiş olundu ki, məhsullarının alınmasına dəstək versinlər. Nəticədə qiymət bahalaşması olmasın və inkişaf təmin edilsin. Hər şeyə alternativ tapmaq mümkündür. Düyü yoxdursa, yerinə qarabaşaq var. Daxildə qiymət artımlarını özümüz edirik və həlli yolu bəllidir. Bahalaşma xaricdən qaynaqlanırsa, o zaman idxal əvəzləyicisi sektorların inkişafına yönəlməliyik.

*"Kimsə istədiyi vaxt, heç bir əsas olmadan qiymətləri artırsın və adını "azad sahibkarlıq" qoysun, belə olmaz"*

**- Bəzən dövlətin yerli bazarda qiymətlərə qarışması liberal iqtisadiyyata müdaxilə kimi dəyərləndirilir. Qurumlar hansı hallarda sahibkarların özbaşınalığına "dur" deyə bilər?**

- Dünya hazırda pandemiyanın yaratdığı iqtisadi böhranın içindədir. Əvvəl də qlobal iqtisadi böhranlarla üzləşmişik. Baş verən böhranlar göstərdi ki, dövlətin müdaxiləsi olmadan iqtisadi problemlərin həlli mümkün deyil. Sosial rifah və cəmiyyətin inkişafı hər şeydən öndə dayanır. Bəlli zamanlarda iqtisadi təhlükəsizliyi təmin etmək prioritetə çevrilir və dövlət proqramları tətbiq olunur. Xalqın rifahının yüksədilməsi hər bir dövlətin qarşısında duran əsas məsələdir. Kimsə istədiyi vaxt, heç bir əsas olmadan qiymətləri artırsın və adını "azad sahibkarlıq" qoysun, belə olmaz. Qiymət artımı qaçılmazdırsa, alternativ üsullar tapılır. Məlumat üçün deyim ki, bu gün Moskvanın ətraf bölgələri şəhərin ərzaq təminatını qarşılayır. Moskva sakini Volqoqraddan, Saratovdan ərzaq gözləmir. Bakı kəndlərində əkin üçün yararlı böyük torpaq sahələri var. Həmin torpaqların ölkənin ərzaq təhlükəsizliyində payı nə qədərdir? Bakının ərzaqla təminatında iştirak edirlərmi? Halbuki, ətraf kəndlər uzun zaman paytaxtın ərzaq təminatını həyata keçirib. Rusiyada hər vətəndaşa 6 sot torpaq sahəsi verilir. Bizdə də əhaliyə torpaq payı verilməli, əkibbecərməsi üçün imkan yaradılmalıdır. Bunu reallaşdırsaq, bazardakı qiymətlərə ciddi təsir göstərəcək, bahalaşmanın qarşısını alacaq. Moskvada, Sankt-Peterburqda akademiklər, professorlar, məsləyindən asılı olmayaraq bütün peşə sahibləri 6 sot torpağa malikdir. Elmi fəaliyyətdən kənarda öz torpağında əkinçiliklə məşğul olur, kartof, soğan əkir. Şəxsən mən də istəyərəm ki, 6 sot torpaq sahəm olsun və kənd təsərrüfatı ilə məşğul olum. Göyərtimi, tərəvəzimi yetişdirim.

**- Hər qiymət artımında ciddi tənqid hədəfi olan qurumlardan biri Taarif Şurasıdır. Bu qurumun fəaliyyətinə münasibətiniz necədir?**

- Əfsuslar olsun ki, şirkətlər Taarif Şurasına ancaq hansısa məhsulun qiymətinin artırılması ilə bağlı təkliflər edirlər. Halbuki, qiymətlərin aşağı endirilməsi təklifləri də irəli sürülməlidir. Bütün problemlər qiymətlərin bahalaşması ilə həll olunmur axı. Əgər hansısa dövlət qurumu, yaxud şirkət qiymət artımı təklif edirsə, ilk növbədə həmin idarənin lüks həyatını araşdırmaq lazımdır. Bir çox qurumda istifadə olunmayan 50-dən çox avtomobil var. Hamısının istismar, saxlama xərcləri var. O qədər lazımsız xərcləmələr olur ki, nəticədə qiymət artırılmasına gətirib çıxarır. Şirkətlərin hamısı öz fəaliyyətində kökündən dəyişiklik etməlidir. Koorporativ idarəetmə və şəffaflıq sistemini inkişaf etdirməlidir. Hər ödəmələr, xərclər qəpik-quruşuna qədər dəqiq qeyd olunmalıdır. Avropa Birliyinin üzvü olan Polşadan İstanbula təyyarə ilə səfər etmək Azərbaycandan Türkiyəyə uçmaqdan daha ucuzdur. Belə olmalı deyil axı. Əfsuslar olsun ki, bir çox şirkət rəhbərliyi elə düşünür ki, lüksü təmin etmək üçün əsas vasitə xidmətlərlə bağlı qiymətlərin arıtırılmasıdır. Hələ 1785-ci ildə ABŞ-ın maliyyə naziri məktubunda yazırdı ki, "əgər şirkətlər lüks fəaliyyəti qiymət artımı ilə həyata keçirirlərsə, bununla öz sonlarını gətirirlər". Dünyanın əksər ölkəsindəki nüfuzlu şirkətlərə nəzər yetirin, nə qədər sadədirlər. Bizdə də o cür olmalıdır. İstənilən problemə qarşı adekvat tədbir görməyi bacarmalıyıq. Xatırlayırsızsa, koronavirus pandemiyasının geniş yayıldığı dövrdə dərhal tibbi maska istehsalına başladıq və yerli tələbatı təmin etdik. Deməli, istəsək, özümüz də edə bilərik. Xüsusən, xaricdən ərzaq asılılığını sıfıra endirmək lazımdır.

**- Xaricdən asılılıq demişkən, Aİ 95 və Aİ 98 markalı neftin qiymətində yenidən artım oldu və müvafiq qurum bunu dünya bazarındakı vəziyyətlə əlaqələndirdi. İqtisadçı kimi əsaslanma sizi qane edirmi?**

- Mən ümmumiyyətlə, "dünya bazarı" ifadəsini qəbul etmirəm. Biz dünyada gedən bütün proseslərə hazır olmalıyıq, öz proqramlarımız olmalıdır. Dünyada anidən hər şey baş verə bilər. Daxili imkanlarımız, resurslarımız imkan verir ki, üzləşdiyimiz əksər problemdən çıxış yolu tapaq. Siyasi və iqtisadi müstəqilliyimiz var, ona görə də xaricdən asılı olmamalıyıq. BMT-nin 4 qətnaməsinə rəğmən, Azərbaycanın ərazi bütövlüyü 30 ilə yaxın müddətdə təmin olunmadığı üçün bunu özümüz etdik. Özü də qısa zamanda, cəmi 44 gün ərzində torpaqlarımızı düşmənlərdən təmizlədik. Digər məsələləri də asanlıqla həll etmək iqtidarına sahibik. Niyə xaricdən asılı olmalıyam ki?

**- Pandemiya zamanı yazılmış cərimələrin silinməsi də gündəmdədir. Qonşu Gürcüstan bənzər addım atdı. Sizcə, iqtisadi baxımdan Azərbaycanda da belə qərar alına bilərmi?**

- Əlbəttə, bizdə də eyni qərar verilə bilər. Ən azından araşdırma apararaq müəyyən kəsimin cərimələrini silmək mümkündür. İqtisadi vəziyyəti, yaş ünsürünü və bəzi nüansları nəzərə almaq lazımdır. İlk dəfə idi pandemiya ilə üzləşirdik, əvvəllər belə təcrübə yaşamamışdıq. O baxımdan düşünürəm ki, cərimələri silmək olar.

**İsmayıl Qocayev**



# Paşinyan Ukrayna və Gürcüstanın qapılarını döyür

*Baş nazir Azərbaycanla yekun sülh sazişinin imzalanması prosesini Ukrayna və Gürcüstan üzərindən yürütməyə üstünlük verir*

**Kənan Novruzov**

**"Ermənistan hökumətinin Türkiyə ilə münasibətlərin normallaşdırılması ilə cəhdləri ikibaşlı geopolitik manevrdir. Yəni Paşinyan hakimiyyətinin bu manevrlərində əsas hədəflər yalnız Ermənistanı blokadadan çıxarmaq niyyəti ilə məhdudlaşmır".**

*Bu sözləri Ermənistan Baş naziri Nikol Paşinyanın Türkiyə ilə yaxınlaşmaq barədə bəyanatlarını "Şərq"ə təhlil edən Müstəqil Mətbuat Mərkəzi İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli deyib.*

Onun sözlərinə görə, Paşinyan həm də ABŞ və Qərb ilə Rusiyanı Ermənistan uğrunda mübarizə aparmaq məcburiyyətində qoymaq istəyir: "Məsələ ondadır ki, Türkiyə ilə münasibətlərin normallaşdırılması Ermənistana Qərbə Rusiyadan yan keçməklə, yeni çıxış "pəncərə"si aça bilər. Əgər baş tutarsa, daha sonrakı mərhələdə bu, Ermənistanın Rusiyadan uzaqlaşıb, Qərbə yaxınlaşmasına da münbit şərait yaradar. Təbii ki, Rusiya heç bir halda Ermənistanın Türkiyə üzərindən Qərbə yaxınlaşmasına imkan vermək niyyətində deyil. Kreml Ermənistanı Rusiyanın qeyri-rəsmi quberniyası hesab edir. Və artıq Rusiya siyasi dairələrində Türkiyəyə yönəlik maneələri ilə bağlı Paşinyan hakimiyyəti sərt ittiham olunur. Kremlə yaxın siyasi dairələr Ermənistanı və Baş nazir Nikol Paşinyanı Rusiyaya qarşı xəyanət etməkdə suçlayırlar. Məsələ ondadır ki, Kreml Ermənistana Türkiyə ilə münasibətlərin normallaşdırılmasını qadağan edə bilmir. Ona görə də heç olmasa, bu prosesə nəzarəti öz əlində saxlamağa cəhd göstərir. Ancaq rəsmi İrəvan Rusiyanın Türkiyə-Ermənistan münasibətlərinin tənzimlənməsi prosesində vasitəçilik etmək təklifini "qulaqardına vurur". Vasitəçiləri tamamilə əks istiqamətdə axtarır".

**E.Xalidbəylinin sözlərinə görə, hazırda Baş nazir Nikol Paşinyan Azərbaycanla yekun sülh sazişinin imzalanması və Türkiyə ilə münasibətlərin normallaşdırılması proseslərini Ukrayna və Gürcüstan üzərindən yürütməyə üstünlük verir:** "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Paşinyanın Gürcüstan baş naziri vasitəsilə ona görüş təklifi etdiyini açıqlaması da bunu təsdiqləyir. Hətta Paşinyanın Gürcüstana son səfəri zamanı Batumidə 3-4 saat ərzində yoxa çıxması barədə məlumatlar da mövcuddur. İddia olunur ki, Ermənistan baş naziri Gürcüstanda olarkən Türkiyə və Azərbaycanı təmsil edən yüksək rütbəli şəxslərlə məxfi görüş keçirib. Ukrayna və Gürcüstanın MDB məkanında ABŞ və Qərbin əsas istinad məkanı olduğunu nəzərə aldıqda Ermənistan baş nazirinin bu prosesdə Rusiyanın vasitəçiliyindən yan keçməyə can atdığını düşünmək olar. Böyük ehtimalla Paşinyan hakimiyyətinin yaxın perspektivdə Rusiyanın təsir dairəsindən uzaqlaşmaq planı da olmamış deyil. Digər tərəfdən Baş nazir Nikol Paşinyanın Türkiyə ilə münasibətlərin normallaşdırılması manevrləri ilə Rusiyanı şantaj etməyə çalışa biləcəyi də qətiyyən istisna deyil. Paşinyan hakimiyyəti bununla Rusiya qarşısında Ermənistanın geopolitik əhəmiyyətini artırmağa çalışır. Və Rusiyadan hərbi-siyasi məzmunlu güzəştlər qopara biləcəyinə ümid bəsləyir. Bu baxımdan Paşinyanın tam səmimi olduğunu düşünmək sadəlövhlük olardı. Dediyim kimi, Ermənistan baş naziri ikibaşlı geopolitik manevrlər edir. Hər iki istiqamət üzrə uduşlu mövqe qazanmağa cəhd göstərir. Onun bu ikibaşlı geopolitik manevrlərinin baş tutub-tutmayacağı isə yaxın günlərdə aydınlaşmağa başlayacaq. Hər halda Türkiyə və Rusiyanın Ermənistanın hoqqabazlığına imkan verəcəyi o qədər də inandırıcı görünmür".

"İddia olunur ki, Ermənistan baş naziri Gürcüstanda olarkən Türkiyə və Azərbaycanı təmsil edən yüksək rütbəli şəxslərlə məxfi görüş keçirib"

# Türkiyənin əsas "kart"larından biri Krım olacaq

**Ərdoğan-Putin görüşü bu dəfə gərgin keçəcək**



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışı zamanı Ukraynanın ərazi bütövlüyünün qorunmasının olduqca vacib olduğunu deyib.**

"Krım da daxil olmaqla, Ukraynanın ərazi bütövlüyü və suverenliyinin qorunması mühümdür. Krım tatarlarının hüquqlarının müdafiəsi ilə bağlı səylər gücləndirilməlidir" - deyə o, bildirib.

**Ərdoğanın sözügedən bəyanatını "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq münasibətlər üzrə ekspert Əziz Əlibəylinin sözlərinə görə, bu, Ankaranın xarici siyasəti ilə bağlıdır:** "Türkiyə ilə Rusiyanın mövqeləri dörd nöqtədə - Suriya, Liviya, Aralıq dənizinin şərq sahillərində və Qara dənizdə toqquşur. Tərəflər həmin ərazilərdə siyasətlərini müntəzəm olaraq uzlaşdırmağa məcburdurlar. Məlumdur ki, liderlər ayın 29-da görüşəcəklər. Səfər öncəsi Ərdoğanın sözügedən bəyanatı təsir vasitəsidir. Yəni Türkiyə dövlət başçısının əsas "kart"larından biri məhz Krım olacaq. Bundan sonra Rusiya ilə münasibətlərdə Krım əsas "kart"lardan olacaq".

**Ə.Əlibəyli düşünür ki, tərəflər arasında toqquşma da mümkündür:** "Görüşdə Suriya-Rusiya münasibətləri müzakirə ediləcək. Həmçinin İdliblə bağlı "bazarlıq" ola bilər. Fikrimcə, Azərbaycana dair problem yoxdur. Amma digər yerlərdə situativ və uzunmüddətli ruha malik toqquşmalar istisna deyil. Nəzərinizə çatdırım ki, xüsusilə Krımın ələ keçirilməsi ilə Kremlin üstünlüyü artdı. Yəni Ukraynanın Rusiya qarşısında gücü kifayət qədər deyil. Tərəflər arasında müharibənin olması Ukraynanın parçalanması, fiaskosu deməkdir".

**Kənan**

# Müharibə dövründə də belə idi...

"Ermənistan-İran əməkdaşlığı bütün dünyaya məlumdur"



**Son vaxtlar cənub qonşumuz İranın təlaşı aydın hiss olunmaqdadır. Əvvəlcə hərbi təlimlər keçirərək "əzələ nümayişi" göstərdilər.**

Sonra isə İran dini lideri Seyid Əli Xameyninin nümayəndəsi, Ərdəbil şəhərinin imamcüməsi ayətullah Seyid Həsən Amudi öz cümə xütbəsində Azərbaycanı hədələdi. Onun "Şirin quyruğu ilə oynamayın" bəyanatı ciddi qınağa səbəb oldu. Maraqlıdır, rəsmi Tehran niyə belə əl-ayağa düşüb? Nədən narahatdır?

**Bu barədə "Şərq"ə danışan millət vəkili, Azərbaycan Demokrat İslahatlar Partiyasının sədri Asim Mollazadə cənub qonşumuzun hazırkı ritorikasının gözlənilən olduğunu söyləyib:** "Ermənistan-İran əməkdaşlığı bütün dünyaya məlumdur. Müharibə dövründə Tehran İrəvanı ərzaqla, silahla təmin edib. Odur ki, indiki davranışlar da təsadüfi deyil. Amma İranın addımları islam dəyərlərinə, qonşuluq münasibətlərinə ziddir. Və bunlar müsəlman dünyasında mənfi qəbul olunur".

**Kənan**



# İran geri çəkilməsə, itirə bilər

## Artıq regionda Tehranın Azərbaycandan asılılığı artıb

*“Ona görə də Tehran Cənubi Qafqazdakı mövcudluğunu İrəvan vasitəsilə təmin etməyə çalışır”*

**Məlum olduğu kimi, İranın xarici işlər nazirinin müavini, Beynəlxalq və Siyasi Araşdırmalar Mərkəzinin direktoru Məhəmməd Kazım Səccadpur ölkəmizdə səfərdədir. O, araşdırma mərkəzlərinin üçtərəfli müzakirələrində iştirak etməkdən məmnunluğunu ifadə edib:**

”Bildiyiniz kimi, bu müzakirələrdə Azərbaycan, İran və Türkiyənin araşdırma mərkəzləri iştirak edir. Bizim hər birimizin arasında çox yaxşı ikitərəfli münasibətlər var. Lakin biz düşünürük ki, həmçinin, üçtərəfli format üzərində də işləməliyik”.

Nazir müavini bunun araşdırma və beyin mərkəzlərinin görüşü olduğunu bildirib: ”Bu onu ifadə edir ki, biz region barədə, mövcud ikitərəfli münasibətlərin daha effektiv üçtərəfli formata çevrilmə potensialı barədə düşünürük. Ona görə də bu görüşün hamımız üçün böyük önəmi var. İnanırıq ki, beyin mərkəzləri hər hansı ikitərəfli münasibətlərdə rol oynayır, bu, münasibətlərin bir parçasıdır. Bizim Azərbaycanla ikitərəfli münasibətlərimiz yaxşıdır, eyni zamanda bu, Türkiyə ilə də belədir. Ümid edirəm ki, biz görüşlərdə daha effektiv regional əməkdaşlığı müzakirə edəcəyik. Biz bu gün öz təhlillərimizi paylaşmaq istəyirik”.

*“Gorus-Qafan yolunda saxlanılan iranlılar adi sürücü deyil, bəlkə də vəzifəli şəxslərdirlər”*

**Siyasi şərhçi Asif Nərimanlı Məhəmməd Kazım Səccadpurun ölkəmizə səfəri barədə fikirlərini ”Şərq”lə bölüşüb. Onun fikrincə, ”aysberqin görünməyən tərəfləri” də var:** ”Rəsmi məlumatlarda İran Xarici İşlər Nazirliyi müavininin üçtərəfli ”beyin mərkəzləri” üçün ölkəmizə gəldiyi bildirilir. Lakin onun həm də rəsmilərimizlə görüşəcəyi qeyd olunub. Çox güman, bu, həm də Bakı ilə Tehran arasındakı son dövrlərdəki əlaqələrlə bağlıdır. Dediklərimi hadisələrin xronologiyasına baxaraq da görmək olar. Məlum olduğu kimi, İranın Xankəndiyə yük daşımasının ardınca Azərbaycan Gorus-Qafan yoluna nəzarət etməyə başladı. Bu, cənub qonşumuza xəbərdarlıq idi. Torpaqlarımız azad olunduqdan sonra ”əlimiz daha da gücləndi”. İndi rəsmi Bakının prinsipial mövqeyi Tehranı narahat edir. İranın keçirdiyi təlimlər ”əzələ nümayişidir”. Çünki Tehran ”Üç qardaş-2021” təlimlərini və türklərin Qarabağdakı yenidənqurma işlərində iştirakını özünə təhdid kimi qiymətləndirir. Halbuki, Azərbaycan tarix boyu qonşuluq siyasətindən kənara çıxmayıb”.

**A.Nərimanlı düşünür ki, artıq regionda İranın Azərbaycandan asılılığı artıb:** ”Ona görə də Tehran Cənubi Qafqazdakı mövcudluğunu İrəvan vasitəsilə təmin etməyə çalışır. Fikrimcə, nazir müavininin Bakı səfərində Gorus-Qafan yolunda iki sürücünün saxlanılması məsələsi də müzakirə ediləcək və ya edilib. İranın bu məsələyə belə çox diqqət göstərməsi onu deməyə əsas verir ki, həmin adamlar adi sürücü deyil, bəlkə də vəzifəli şəxslərdirlər. Əlbəttə, bu, sadəcə versiyadır. Hər halda səfər İranın diplomatik kanallarla işləmək cəhdindən xəbər verir. Hərbi təlimlər də Bakı ilə hansısa məsələlərdə razılığa gəlməyə hesablanıb. Lakin Azərbaycan əvvəlki Azərbaycan deyil. İran geri çəkilməsə, itirə bilər”.

**Kənan**

# Paşinyanı meydana itələyən Makrondur

## Ermənistanla bərabər Fransa da məğlub oldu

**İsmayıl Qocayev**



**Fransa Prezidenti Emmanuel Makron ermənilərin məğlubiyyətini qəbul edə bilmir”. Bunu ”Şərq”ə millət vəkili Azər Badamov deyib. Deputat bildirib ki, Makron ”Qarabağ münaqişəsini” ortaya ataraq ATƏT-in Minsk qrupunu yenidən canlandırmaq istəyir:**

”Həmsədr ölkələrin ermənipərəst, birtərəfli və ədalətsiz siyasəti Qarabağ münaqişəsinin 30 il davam etməsinə yol açdı. Bu illər ərzində Azərbaycan münaqişənin sülh yolu ilə həll olunmasını dəstəklədi və bütün danışıqlar prosesində iştirak etdi. Ancaq Ermənistan münaqişənin danışıqlar yolu ilə həll olunmasına imkan vermədi. Minsk qrupunun həmsədr ölkələri isə Ermənistana dayaq durdu. Nəticədə ermənilər ruhlandı, danışıqlar prosesindən tamamilə çıxaraq yeni müharibə ritorikası ilə danışmağa başladılar. Ermənistan-Azərbaycan sərhədində, Qarabağda təxribatlar törədilməsini intensivləşdirdilər. Dövlət başçısı vəziyyəti yaxşı görür, ölkəmizin hərbi potensialını artırır, ali tribunalardan xalqımızın erməni işğalı ilə barışmayacağını bəyan edirdi. Prezident açıq şəkildə deyirdi ki, danışıqlar yolu ilə torpaqlarımızın erməni işğalına son qoyulmazsa, müharibə yolu ilə beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyümüzü təmin edəcəyik. Nəhayət, 27 sentyabrda ermənilərin törətdiyi təxribata cavabımız çox sərt oldu. 44 günlük Vətən müharibəsi ilə ”məğlubedilməz erməni ordusu” darmadağın edildi və ərazi bütövlüyümüz bərpa olundu. Ölkə rəhbəri birmənalı şəkildə münaqişənin bitdiyini açıqladı. 10 noyabrda imzalanmış üçtərəfli bəyanat da müharibənin bitməsi deməkdir”.

**Parlament üzvü vurğulayıb ki, Azərbaycanın döyüş meydanında əldə etdiyi şanlı qələbəsini qəbul etməyən ölkələr var:** ”Belə ölkələrdən biri Fransadır. 44 günlük müharibə dövründə açıq-aşkar canfəşanlıq edən, ermənilərə dəstək verən, müharibənin dayandırılmasını tələb edən Makron idi. Makronun indiki bəyanatları da qəbuledilməzdir və bunu Azərbaycanın daxili işinə qarışması sayıram. Azərbaycan elə Fransanın da tanıdığı sərhədləri daxilində təhlükəsizliyini təmin edib. Əgər Makron ermənilər üçün ikinci dövlət yaratmaq istəyirsə, ermənilərin Qarabağdan dəfələrlə çox yaşadığı Marsel şəhərini erməni dövləti elan etsin. Azərbaycanın hər bir xarici təzyiqə və müdaxiləyə cavab verməyə gücü var. Təhlükəsizliyimizin qarantı qardaş Türkiyədir. 15 iyunda imzalanmış Şuşa Bəyannaməsi bizim müttəfiqliyimizi daha da möhkəmləndirib. Yanımızda dost Pakistan da var. Azərbaycan-Türkiyə-Pakistan üçlüyü dünya səviyyəsində böyük gücdür və heç bir ölkə bu gücün qarşısında Azərbaycanla diktə ritorikası ilə danışa bilməz”.

# Rusiya Türkiyəni özü üçün nəfəslik görür

## İstənilən halda Moskva Ankara ilə əməkdaşlıqda maraqlıdır və müəyyən dərəcədə buna məcburdur



**Rusiya Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Soçi səfəri öncəsi Krımın ilhaqına dair bəyanatından təəssüflənib. Bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Ərdoğanın bəyanatında ünvanın Moskva olduğu bəllidir:**

”Biz bunu belə qəbul edirik. Əlbəttə ki, bu bəyanatın indi, Türkiyə Prezidentinin Rusiyaya işgüzar səfərinin hazırlandığı vaxt səslənməsindən təəssüflənirik. Bununla belə, ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsi və ölkələrimiz arasında gündəlikdə duran çox qaynar regional problemlərin həllində qarşılıqlı əlaqələr mövzusuna diqqət yetirməyi üstün tuturuq. O ki qaldı Türkiyənin bu mövqeyinə, biz bunu yaxşı bilirik. Bu mövqe ilə qətiyyən razı deyilik. Türkiyə tərəfi ilə işləməyi davam etdirəcəyik”. Məlumat üçün deyək ki, Ərdoğan BMT Baş Assambleyasının 76-ci sessiyasında çıxışı zamanı Krımın ilhaq olunduğunu bildirib. Türkiyə lideri Ukraynanın ərazi bütövlüyünü tanıdıqlarını söyləyib. Onu da xatırladaq ki, Türkiyə Prezidenti R.T.Ərdoğan yaxın günlərdə Rusiyanın Soçi şəhərinə səfər edəcək. Səfər çərçivəsində Ərdoğanın Rusiya rəhbəri Vladimir Putinlə görüşəcəyi deyilir.

**Kremlin Ərdoğanın çıxışına verdiyi reaksiyanı ”Şərq”ə təhlil edən ”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov bildirib ki, Türkiyə rəhbərinin Krımla bağlı açıqlaması nə qədər təbiidirsə, indiki halda Moskvanın reaksiyası da o qədər təbiidir.** Analitik vurğulayıb ki, Krım məsələsində hər iki ölkənin - həm Rusiyanın, həm də Türkiyənin mövqeyi dəyişməzdir: ”Beynəlxalq hüquqa görə, Krımın Ukrayna ərazisi olması hər kəsə məlumdur və mübahisə predmeti deyil. Bu reallığı Moskva özü də yaxşı bilir. Türkiyə-Rusiya münasibətləri bir neçə istiqamət üzrə cərəyan edir. Birincisi, ikili əlaqələrdən, yəni iqtisadi, ticari və mədəni əməkdaşlıqdan söhbət gedir. Bunun içərisində S-400 raketlərinin müzakirəsi, ”Akkuyu” stansiyasının tikintisi ilə bağlı məsələlər də yer almaqdadır. İkinci məqam isə regional məsələlərin həlli ilə bağlıdır. Türkiyə-Rusiya arasında Yaxın Şərqdə, Balkanlarda, Mərkəzi Asiyada, Cənubi Qafqazda, eyni zamanda Əfqanıstanda ortaq fəaliyyət imkanları da müzakirə mövzusudur. Bəzi bölgələrdə hər iki dövlətin fikir toqquşmaları var. Bəşər Əsədin ötən gün Rusiyaya səfəri Ankarada xoş qarşılanmadı. Bu baxımdan Ərdoğanın BMT-də Krımla bağlı açıqlamasını Əsəd məsələsində revanş kimi dəyərləndirmək olar”.

**S.Hümbətova görə, Türkiyə prezidentinin Rusiya səfərində müzakirə olunası mövzuların sayı çoxdur:** ”Şübhə yox ki, səfər çərçivəsində Qarabağ ətrafındakı proseslər, regional kommunikasiya məsələləri də Putinin diqqətinə çatdırılacaq. Zəngəzur dəhlizi ilə bağlı geniş müzakirələrin aparılması ehtimalı da böyükdür. İstənilən halda Moskva Türkiyə ilə əməkdaşlıqda maraqlıdır və müəyyən dərəcədə buna məcburdur. Çünki başqa alternativi yoxdur. Davamlı sanksiyalardan ciddi ziyan görən Rusiya Türkiyə ilə iqtisadi əməkdaşlığı özü üçün nəfəslik kimi görür”.

**İsmayıl Qocayev**

**Dünən ümumi təhsil müəssisələrinin I-IV sinifləri üzrə 22 sentyabr 2021-ci il tarixindən ənənəvi şəkildə tədrisə başlanılıb. Qeyd edilən siniflər üzrə 643 333 nəfər şagird ənənəvi tədrisə başlayıb. Təhsil Nazirliyindən verilən məlumata görə, 2021-2022-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrində ümumilikdə 1 589 829 şagirdin təhsil alacağı proqnozlaşdırılır. Ümumtəhsil məktəblərinin I sinfində 158 608, IX sinfində 132 881, XI sinfində isə 91 538 şagird təhsil alacaq. Respublika üzrə ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 117 176 şagirdin təhsilə cəlb olunacağı gözlənilir. 2021-2022-ci tədris ilində I-XI siniflərdə ilk dərslər ”Qarabağ Azərbaycandır!” mövzusuna həsr olunacaq. Yeni tədris ilinin ilk gününədək 5 əsaslı təmir olunan, 17 yeni tikilən, 15 modul tipli məktəb istifadəyə verilib. Qeyd edək ki, sentyabrın 29-dan isə ümumi təhsil müəssisələrinin V-XI sinifləri üzrə, eləcə də məktəbdənkənar, peşə, orta ixtisas və ali təhsil müəssisələrində də ənənəvi şəkildə tədrisə başlanılacaq.**



# 1 il 6 aydan sonra...

## Orta məktəblərdə tədrisin tam bərpası böyük hadisədir

**Aynurə Pənahqızı**







**Məktəblərdə dərslər hansı qaydada dayandırılacaq?**

Azərbaycanda məktəblərdə dərslərin hansı qaydada dayandırılacağı müəyyən edilib. Qeyd edilib ki, təhsil müəssisəsinin ayrı-ayrı siniflərində (qruplarında) əyani formada aparılan tədris və təlim-tərbiyə prosesinin dayandırılması və ya yenidən bərpası barədə qərar Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyi əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyini məlumatlandırmaqla həmin təhsil müəssisəsi tərəfindən qəbul edilir.

**Təhsil müəssisələrinə giriş və çıxış üzrə tələblər dəyişib**

Qüvvədə olan qərara əsasən, təhsil müəssisələrinə giriş və çıxış zamanı şəxslər (təhsil alanlar, təhsil verənlər və s.) arasında minimum 1,5 metr sosial məsafə təmin olunmalı və bu məqsədlə təhsil müəssisəsinin girişindəki meydançanın yeri döşəmə işarələri ilə işarələnməli, müəllim otağında, kafedrada və digər heyətin iş və istirahət otaqlarında sosial məsafə (ən az 1,5 metr) gözlənilməli idi. Dəyişikliyə əsasən, 1,5 metr məsafə tələbi 1 metrə endirilib. Beləliklə, təhsil müəssisələrinə giriş və çıxış zamanı şəxslər (təhsil alanlar, təhsil verənlər və s.) arasında minimum 1 metr sosial məsafə təmin olunmalı və bu məqsədlə təhsil müəssisəsinin girişindəki meydançanın yeri döşəmə işarələri ilə işarələnməli, müəllim otağında, kafedrada və digər heyətin iş və istirahət otaqlarında sosial məsafə (ən az 1 metr) gözlənilməlidir.

**Şagirdlər fasilələrdə təmiz havaya çıxacaqlar**

”Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları”ndakı dəyişikliyə əsasən, dərslərarası (məşğələlərarası) fasilələrdə təhsil alanların təmiz havada olmasına şərait yaradılacaq. Qeyd edək ki, bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarı ilə təsdiq edilib. Nazirlər Kabineti ”Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları”nın təsdiq edilməsi barədə” 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarında dəyişiklik edilməsi və ”Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər barədə” 2021-ci il 22 yanvar tarixli 12 nömrəli Qərarının ləğv edilməsi haqqında qərar qəbul edib.

**Bakı məktəblərinin həyətlərinə valideynlər buraxılmır?**

Sıxlıq olan məktəblərdə təhsil müəssisələrinin rəhbərləri növbəliliyi təmin etmək məsələsində müstəqildirlər. Bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, direktorlar problemi tənzimləmək üçün tədris prosesini növbəli şəkildə qura bilərlər: ”Əgər həqiqətən ciddi sıxlıq varsa, sıxlığın aradan qaldırılması üçün şənbə günləri də tədrisin həyata keçirilməsi mümkündür. Düzdür, şənbə günü ilə bağlı müəyyən problemlər yarana bilər, amma müəssisə rəhbərləri sorğu keçirərək buna əsasən işlərini qura bilərlər”.

Mehriban Vəliyeva paytaxt məktəblərinin həyətlərinə valideynlərin buraxılmaması məsələsinə münasibət bildirib. Mehriban Vəliyeva valideynlərin bu məsələyə anlayışla yanaşmalarını tövsiyə edib: ”Valideynlər təhsilin bir parçasıdır. Onlar da bu prosesə anlayışlı yanaşmalıdır. Əgər sıxlıq və problem yaranırsa, onların məktəbdən kənarda dayanması daha yaxşıdır. Məktəbə isə yalnız COVID -19 pasportu ilə daxil olmaq mümkündür. Mənə elə gəlir ki, belə məqamlarda valideynlər övladlarının sağlamlığı üçün çalışmalıdır ki, sıxlıq prosesi tənzimlənə bilsin”. O bildirib ki, hələ də vaksinasiyadan keçməyən təhsil işçiləri var. Vaksinasiyadan keçməyənlər tədrisə cəlb olunmur. Bu məsələyə də məktəb rəhbərliyi cavabdehdir və bunu nəzarətdə saxlayaraq tənzimləyirlər. Tədrisə cəlb olunmaq üçün mütləq şəkildə ya COVID-19 pasportu, ya da əks-göstəriş sertifikatı təqdim olunmalıdır. Əgər bir təhsil müəssisəsinin işçilərinin 80 faizindən çoxu peyvənd olunubsa, həmin müəssisədə tədris prosesinin tənzimlənməsi mümkündür. Bütün bu tələblər təmin olunduğu üçün 310 məktəbin hamısında əyani tədris bərpa olunub.

**Yaşı 65-dən yuxarı olan müəllimlər tədrisə cəlb olunacaqmı?**

Təhsil Nazirliyi xüsusi karantin rejimi dövründə yaşı 65-dən yuxarı olan müəllimlərin tədrisə cəlb olunub-olunmayacağına aydınlıq gətirib. Təhsil Nazirliyindən bildirilib ki, yaşı 65-dən yuxarı olan təhsilverənlərin daimi işə cəlb olunması nəzərdə tutulur. Qeyd edək ki, Nazirlər Kabinetinin 21 sentyabr 2021-ci il tarixli qərarı ilə ”Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları”nda etdiyi dəyişikliyə əsasən, tədris və təlim-tərbiyə prosesinə cəlb olunmayan yaşı 65-dən yuxarı olan təhsilverənlərin işində yaranan fasilələrin onların iş vaxtına daxil edilməsi və əməkhaqqının saxlanılması ilə bağlı bənd (4.2.3.) ləğv edilib.

**Valideynlərimiz ölkədə pandemiya dövrünün davam etdiyini tamamilə unudublar**

**Təhsil-eksperti Kamran Əsədov “Şərq”ə yeni tədris ilinin ilk günü ilə bağlı danışıb. O, açıqlamasında ilk olaraq qeyd edib ki, 1 il 6 aydan sonra orta ümumtəhsil məktəblərində tədrisin tam şəkildə bərpası böyük hadisədir:** ”Bu məsuliyyəti üzərinə götürdüyünə görə Təhsil Nazirliyinə, hökumətə təşəkkürümüzü bildiririk. Biz bu gün Bakının Xətai, Nəsimi, Binəqədi, Xəzər rayonlarında monitorinqlər apardıq. Müşahidələrimizə əsasən deyə bilərik ki, kifayət qədər uşaqlar böyük əhval-ruhiyyə ilə məktəbə gedirdilər. Ancaq təəssüflər olsun ki, hələ də əvvəlki ənənələrimiz davam edir. Valideynlərimiz ölkədə pandemiya dövrünün davam etdiyini tamamilə unudublar. Çox təəssüflər olsun ki, məktəblərdə apardığımız monitorinqlər göstərdi ki, birinci sinfə övladı yola salan tək valideyn deyildi, orda ailənin üzvlərindən bir neçə nəfəri də var idi. Bu da istər-istəməz süni şəkildə məktəblərin qarşısında sıxlığa səbəb oldu. Baxmayaraq ki, Təhsil Nazirliyi bununla bağlı xəbərdarlıq etmişdi. Eyni zamanda, tövsiyə olunurdu ki, valideynlər məktəbə övladlarını qoyduqları zaman toplaşmasınlar, lakin valideynlər saatlarla orda yığışıb söhbət edirdilər. Əlbəttə, bunu başa düşmək olar. Hamı üçün məktəblərin açılması sevincli hadisədir. Amma biz tədrisin tamamilə uzunmüddətli davam etməsini istəyiriksə, hər hansı kəsintinin olmasını istəmiriksə, birmənalı şəkildə pandemiyanın qaydalarına riayət etməliyik. Qeyd edək ki, 29 sentyabrdan sonra digər siniflər tədrisə başlayacaq ki, bu da xeyli insan kütləsinin hərəkət etməsi deməkdir. Bütün bunların hamısı bizdən pandemiyanın qaydalarına riayət etməyi tələb edir. Düzdür, məktəblərdə dezinfeksiya işləri aparılıb, pandemiyanın digər qaydalarına riayət olunur. Bütün bunlara baxmayaraq, valideynlər də qaydalara riayət etməlidir”.

# "Xalq demokratiya istəyir"



## Anar Əsədli: "Çünki Qələbə sevincini dadan insanların öz doğma Vətənində normal, sivil bir cəmiyyətdə yaşamaq haqqı daha çoxdur"

**Müsahibimiz Azərbaycan Yüksəliş Partiyasının başqanı Anar Əsədlidir. Partiya sədri ilə Azərbaycandakı ictimai-siyasi durumdan, regionda baş verən proseslərdən və digər məqamlardan danışdıq.**

**İlk sualımız isə bu və ya digər ölkələrdə oturuşmuş demokratik sistemlər və nəhayət, onun Azərbaycanda nə vaxt formalaşacağı ilə bağlı oldu.**

- Bilirsiniz ki, 1789-cu ildə Fransada Bastiliya qalasının fransız xalqı tərəfindən darmadağın edilməsindən sonra insan haqları deklarasiyasına aparan yolun başlanğıcı elə demokratiyanın başlanğıcı idi. Yəni Fransa Burjua İnqilabı xalqların haqsızlığa qarşı usyanın inqilaba çevrilməsini və bunun necə qanlı fəsadlar verəcəyini göstərən canlı tarixi hadisə idi. Bəli, hər ölkədə səbəblər və katalizatorlar, devrilmə üsulları fərqli ola bilər. Məsələn, Şərqdə baş kəsilir, Avropada təpik, şillə işə düşür və ya Belarusda bir gözəl xanım milisi öpür. İnqilab səbəbləri isə birdir - xalqın ayrı-ayrı fərdlərinin səsi eşidilmir, onların düşüncəsi və deməli, həm də kükrəyən qəzəbi duyulmur, şiddətə aparan yollar təhlil edilmir. Yəni əslində bu 200 il ərzində dünyanın bir çox yerində avtoritar quruluşlar tarixin arxivinə getdi. Yerində oturuşmuş demokratik sistemlər formalaşdı. Dərs oldumu? Xeyr! Niyə? Çünki qəribədir; bütün avtoritar liderlər elə bilir, diktaturanın gətirdiyi fəsadlar məhz ondan yan keçəcək. Düşünürlər ki, məsələn, hansısa ölkədə Qəddafi və ya Səddam devrildi, mənə nə?

Halbuki, xalq böyük bir gücdür. İnanın, xalq doğrudan da həmişə ən böyük güc olub. Bu güc hər zaman çalxalana bilər qalxa bilər və devirə bilər. Avtoritar rejim sahiblərinə çatmır ki, xalq qalxa bilər, onu devirə bilər. Heç vaxt bu təhlükəni özlərinə yaxın buraxmırlar. Avtoritarizmin ən böyük bəlası da budur. Onlar bunun fərqində ola bilmirlər.

Hər bir xalqın eşidilməyə ehtiyacı var. Xalq o vaxt üsyan edər ki, onu eşitməyəsən. Xalqı sosial rifahla əldə saxlaya bilməzsən. Sosial rifahını yaxşı edim, pulunu verim, parasını ödəyim, xalq razılaşacaq. Xeyr. Sən o xalqın hakimiyyətini mənimsəmisənsə, bu hakimiyyətdə yerli idarəetmənin və xalqın iştirakının qarşısını alırsansa, bunu qəbul etməyəcək, zamanla öz sözünü deyəcək. Atatürk necə deyirdi: "Hakimiyyət qeyd-şərtsiz millətindir!".

**- Azərbaycan xalqı necə, sizcə, bunun fərqindədirmi?**

- Əslində, hə. Amma böyük ölçüdə, dövlət anlamında fərqində deyil. 200 ildən artıqdır ki, imperiya siyasəti yeridən əvvəl Çar Rusiyası, sonra Sovet Rusiyası və indiki Rusiya bu məmləkətin insanlarının, xüsusilə türklərin dövlət təfəkkürünü silməklə məşğuldu. Ona görə də bizim bu günlər demokratiya uğrunda verdiyimiz mücadilədə bir sıra əskikliklərimizin kökünü, həmin bu 200 illik imperializm siyasətinə məruz qalmağımızda, istismar olunmağımızda axtarmaq lazımdır. Baxın, 1813 və 1828-ci illərdə bizi böldülər. 100 il sonra biz Cümhuriyyət qurduq.

Bütövlükdə deyə bilməzsən, xalqda Cümhuriyyət, demokratiya istəyi olmayıb. Cümhuriyyət öz-özünə qurulmur ki? Demək, Cümhuriyyət qurmaq fikri olub. Bu fikir Axundovdan, Zərdabidən başlayıb, əsrin əvvəlindəki aydınlarımıza qədər gəlir. Məhz Cümhuriyyət ideya və fikri olduğu üçün Rəsulzadə və silahdaşları bunu əmələ çevirdilər, Cümhuriyyət qurdular.

Amma nə oldu? Çar Rusiyasını Sovet Rusiyası əvəzlədi, Cümhuriyyəti başımıza yıxdı.

**Sonra nə oldu? Aydınlarımızın başını kəsdilər 37-də. Adını sildilər, türksən, sənə azərbaycanlı dedilər. Və başına nə müsibətlər gətirildi?**

Hər şeyə rəğmən, 70 il sonra xalq yenə Cümhuriyyət qurmaq istəyir. Ona görə də bu xalqı ittiham eləyə bilmərik.

Xalq yenə qalxır, Cümhuriyyət qurmağa və yenə nə olur? Qarabağ adlı münaqişə yaradırlar və bu xalqı salırlar o münaqişənin içinə. Əslində bu, müstəqilliyə bir təhdiddir. Deyir, sən müstəqil ola bilməzsən. 1990-da 20 Yanvar, sonra 1992-də Xocalı soyqırımını törədirlər və 30 ilə yaxın səni münaqişənin içində tutub əzməyə çalışırlar. Təbii ki, bu xalqın istər-istəməz demokratiya uğrunda mücadilədə müəyyən çatışmazlıqları olacaq. Bütövlükdə xalqa köklənmək də olmaz ki, yox, xalq bacarmır, xalq demokratiyanı anlamır, xalq Cümhuriyyəti istəmir. İstəyir. Amma xüsusilə ideoloji baxımdan çox basqı var.

**- Amma ortada qonşu Gürcüstan nümunəsi də var axı. Onlar da repressiyaya məruz qalıb. Onlar bizdən əvvəl, 1783-cü ildə Georgiyevski müqaviləsi ilə Rusiyanın tərkibinə qoşulublar. Bəlkə burda dini faktor məsələsi var?**

- Dini faktor sözsüz ki, var. Tiflisin Qafqazın mədəniyyət mərkəzinə çevrilməsi əlbəttə, ilk növbədə gürcülərin xristian olması ilə əlaqədardısa, ikinci tərəfdən Qafqazın ən böyük etnik birləşməsi olan biz türklərin parçalanmış halda olmamızla əlaqədar idi. Etno-psixoloji faktorlar da var.

19-cu əsrin əvvəlində Qafqazın mədəniyyət mərkəzi hara idi? Tiflis şəhəri. Məsələn, Mirzə Fətəli Axundov hardan dünyaya səslənirdi? Tiflisdən. Mirzə Cəlil harda "Molla Nəsrəddin" jurnalın yaratmışdı? Tiflisdə. Azərbaycanın düşünən beyinləri harda yığılışıb dünyaya mesaj verirdilər? Tiflisdə.

Tiflis əslində o dövrdə Qafqazın baş şəhəri sayılırdı. Bəs bu, nə ilə bağlı idi? Bunu Azərbaycanın parçalanmasında görmək lazımdır. Əgər Azərbaycan 1813 və 1828-də parçalanmasaydı, baş şəhəri hansı idi? Təbriz. Burda Azərbaycanın parçalanmasının çox böyük önəmi olub. Eyni zamanda mədəniyyət, təhsil, ticari-iqtisadi məsələlər də çox ciddi əhəmiyyət daşıyır. Və belə bir şəraitdə biz parçalandıq. Bir hissə Bakının paytaxt olması ilə rusun əsarətinə düşdü və digər bir hissə isə İranın əsarətində qaldı. Təbii ki, bu faktor da çox ciddi bir məsələdir. Çünki burada bütöv Azərbaycan prizmasından yanaşmaq lazımdır məsələyə. Əgər Azərbaycan ilə Gürcüstanı müqayisə ediriksə, tarixi faktorları nəzərdən qaçırmamalıyıq. O baxımdan mən sizinlə razıyam. Gürcüstanın, Tiflisin bir az fərqli təkamülə gəlməsi bizim bölünməyimizlə bağlıdır. Biz bölünməsəydik, bunları yaşamayacaqdıq. Əslində, Qafqazda və bütün regionda əsas qüvvə, yəni lokomotiv biz olacaqdıq. Amma bölündük. Bizim bölünməyimiz bunu əlimizdən aldı. Mən məsələni bu cür görürəm.

**- Bəs, Azərbaycan insanı demokratiyaya hazırdırmı? Demokratik cəmiyyət qurmaq mümkün görünürmü?**

- Hazırdır. Bəli. Yeni nəsil gəlir. Azərbaycan insanı 30 ildə çox şeyi vurdu-çıxdı, hesabladı və gördü ki, kim haqlıydı, düz idi. Demokratiya nədir, avtoritar rejim nədir? Azərbaycan insanı ilk növbədə Qarabağ probleminin çözülməsini istəyirdi. Bizə torpaq lazım idi, "torpağımızı, Vətənimizi geri alaq", deyirdi. İndi torpaqların böyük hissəsini almışıq.

Demokratik cəmiyyət uğrunda mübarizə bundan sonra daha böyük vüsətlə davam etməlidir. Çünki Qələbə sevincini dadan insanların öz doğma Vətənində normal, sivil bir cəmiyyətdə yaşamaq haqqı daha çoxdur. Yəni önəmli olan sənin demokratik cəmiyyət qura bilməyindir. Sənin vətəndaşının yerli idarəetmə sistemində iştirakıdır. Biz dövləti yavaş-yavaş, mərhələli şəkildə qururuq. Yəni birinci xalq olaraq istəyimiz nə idi? Əlbəttə, müstəqillik və torpaqlarımızın işğaldan azad edilməsi. Bu, öncəlik idi. İndi buna böyük bir ölçüdə nail olmuşuq. Amma hələ də xalq olaraq, içimizdə bir qorxu var - demokratiya istəyi xaosa çevrilə bilər. Öncə bunu izah etmək lazımdır, demokratiya uğrunda mübarizə xaos, torpaq itkisi və s. demək deyil.

**Xalq demokratiyaya o zaman hazır olacaq ki, yerli idarəetmədə iştirak edə bilsin. Başa düşəcək ki, bu idarəetmə sistemi nədir. Xalq yerli idarəetmə sistemində iştirak edə bilmir. Prezidenti necə demokratik seçsin. Parlamentə necə getsin?**

- Siyasi partiya sədrlərinin, liderlərinin məsuliyyəti nə qədərdir?

- Kifayət qədər çoxdur. Əslində ölkədə avanqard güc siyasi partiyalar və partiya rəhbərləridir. Dövlətdən fərqli olaraq, siyasi partiyaların elə böyük bir resursları olmur. Siyasi partiyaların vəzifəsi görüşlər keçirmək, danışıqlar aparmaq, müsahibələr vermək, yəni xalqa durmadan fikir və bilgi istehsal etməkdir. Doğru cəmiyyət qurmaq üçün ideya verilməlidir.

Bir siyasi lider danışırsa, önəmli olan onun nitqi, ideyası, fikri və düşüncəsidir. Məsələn, bizim bəzi partiya rəhbərləri var. Bəzən mən deyəndə yarızarafat, yarıciddi irad tuturlar ki, "qardaş, sən bu bələdiyyə məsələsini qaldırma, biz yerlərdə bələdiyyə üzvlüyünə kimin namizədliyini verəcəyik?".

Yəni şəxsi maraqlar da var. Əslində biz Türkiyədəki sistemin bura gətirilməsindən yanayıq. Oradakı siyasi mədəniyyət sistemini gətirməliyik. Partiyaların peşəkar çalışmasını gətirməliyik. Məsələn, vacib deyil ki, AY Partiyasının hər bölgədə təşkilatı olsun. Deyək, Goranboyda və ya Mingəçevirdə rayon şöbəsi fəaliyyət göstərsin. Biz ilk növbədə rayonlarda bölgə liderlərini yetişdirməliyik. Bu proses gedir hazırda. Sadəcə, bunu mətbuata açıqlamırıq. Bu işlər başa çatandan sonra məlumat veriləcək.

**"Kim nə deyir desin, Rusiya iki yüz ildir, silahı verib erməninin əlinə, qanımızı tökür. Bizim hər bir Şəhidimizin qanında Rusiyanın əli var. Onun verdiyi silahlardır, igidlərimizi al-qana boyayan"**

Yəni fikirləşirəm ki, ayrı-ayrı rayonlarda hansısa şöbəyə, quruma ehtiyac yoxdur. Əsas bölgə liderləridir. Çünki Azərbaycan onsuz da kiçik ölkədir. Ola bilər kimsə bizim partiyanın üzvü deyil. Lakin simpatiya bəsləyə bilər, vacib deyil partiyaya üzv olsun. Önəmlisi siyasi maraqlar baxımından bir yerdə olmaqdır.

Hər kəsin bir partiyada üzv olmasına ehtiyac yoxdu. Gərəkli olan eyni partiyanın siyasi fikirləri ilə razılaşıb, onu hakimiyyətə daşımaqdır.

Bölgələrdə bunu təşkil eləmək üçün, məsələn, o bölgədə bir nüfuzlu ziyalı, tanınmış yazar və ya iş adamına yaxınlaşırsan və deyirsən ki, belə bir partiya var, məqsədləri və ideoloji fikirləri budur. Razılaşırsa, qəbul edirsə, bu artıq gücdür.

Bir məqama da toxunaq. Xalqın siyasi proseslərdə aktiv olmaması, yeni siyasi liderlərin ortaya çıxmasına mane olur. Hazırda meydanda olan siyasət adamlarının əksəriyyətinin Azərbaycanın müstəqilliyində xidmətləri olub. Sağ olsunlar, Azərbaycanda demokratiya uğrunda 30 ildir mücadilə aparırlar. Amma yorulublar. Enerjiləri tükənib. Yəni bir az da yanlış üslub və doğru olmayan ritorika ilə xalqı çəkindirdilər siyasətdən. Məsələn, mən seçkidə oldum və gördüm ki, Azərbaycan xalqı deyir, "mən bu hakimiyyəti sevmirəm. Rüşvət var, korrupsiya var, sosial rifah baxımından çox bərbad vəziyyətdəyəm. Təhsilim pis gündə, səhiyyə bərbad. İş yeri yox".

Yəni xalq inamsızdır. Amma həm də deyir ki, mən müxalifətə də inanmıram, çünki uğursuz siyasət yürüdüblər. Yəni dəyişikliyə nail olmanın yolların tapıb həyata keçirə bilməyiblər. Xalq deyir ki, demokratiya və digər haqlarım üçün mübarizə aparmaq istəmirəm. Bizə deyir ki, gedin mübarizənizi özünüz aparın.

Gələk siyasi liderlərə. Burada bir məqamı nəzərdən qaçırmaq olmaz. Demokratiyanın və müstəqilliyin ilk dalğasının gətirdiyi xalq hakimiyyətləri sovetlərin (Rusiyanın) uzun illər yetişmiş KQB sisteminin əli ilə ustalıqla devrildi. Demokratları bacarıqsız, qabiliyyətsiz, səriştəsiz, xaosa və vətəndaş müharibəsinə səbəb olacaq hərəkətlərdə suçladılar və bu ölkələrin hamısında bir müddət xalqlar psixoloji çaşqınlıq yaşadı. "Əsas olan stabillikdir" şüarları ayaq tutsa da, yerimədi. Rüşvətdən, qanunsuzluqdan, şiddətdən bezən xalq özünə yeni liderlər və siyasi təşkilatlar axtardı. Bir vaxtlar Azərbaycanın tanınmış liderləri və siyasi partiyaları var idi, zamanında qərargahın önündən insanları yığa bilmirdi. İndi o təşkilatları tapa bilməzsiniz. Yoruldular. Xalq nə o tərəfi, nə bu tərəfi qəbul eləyir. Xalq hakimiyyəti də sevmir və ona qarşı mübarizə də aparmır. Digər tərəfdən partiyalara deyir ki, başa düşürük, siz ölkəyə demokratiya gətirmək istəyirsiz, məqsədiniz budur, amma bu illər ərzində uğur qazana bilməmisiniz.

Məsələn, sosial şəbəkələrdə hansısa bir partiyanı dəstəkləyən adamların 50-100 minini realda bir yerə yığmaq mümkünsüzdür. Mən bir dəfə bu partiya rəhbərlərinin birinə sual verdim ki, siz ümumiyyətlə xaricdə təhsil alıb ölkəyə qayıdanların orta statistikasını çıxarmısızmı? Kimdilər? Hardadılar? Harda işləyirlər?

Bunu əminliklə deyirəm ki, Azərbaycanın gələcəyi yeni nəsildədir. Mən də istəyirəm ki, uşaqlar daha çox Türkiyədə elm alsınlar. Doğru və savadlı şəkildə yetişsinlər ki, biz onlarla seçimə girə bilək. Mən də həmin gənclərlə seçimə girib ölkədə demokratiyanın qurulmasına nail ola bilim. Əgər yeni yetişən gəncliyə yatırım qoymasaq, o zaman heç nəyə nail olmayacağıq. Bizim valideynlərimiz, bizdən önçəki nəsil ənənəvi sosial təbəqəyə etimad ediblər. Nə qazanıblar?

Daha çox sənin səsinə səs verə biləcək təbəqələrlə işləməlisən.

**- Təxminən bir ildir, başqanı olduğunuz Azərbaycan Yüksəliş Partiyası yaranıb. Bu bir ildə nəyə nail olmusuz?**

- Burda bir məqamı deyim. Sosial şəbəkə üzərindən bizim qərargaha gələn, statuslar yazan, bizimlə işləmək istəyən adamlar var. Bunlar bizim qohumumuz, ya da tanışımız deyil. Niyə bura gəlirlər? Çünki fikir və ideya baxımından yaxınlıq var. Oxuyurlar, araşdırırlar, suallar verirlər. İnanıram ki, hazırkı gənclik bizi hələ çox sorğulayacaq. Yüzlərlə sual verirlər. Kifayət qədər aktivdirlər.

**- Məsələn, nə ilə maraqlanırlar?**

- Bu gün gənclərimizi əsas maraqlandıran məsələ Azərbaycanda doğrudan da demokratik sistemin formalaşacağı ilə bağlıdır.

**- Siz nə cavab verirsiz?**

- Əlbəttə bu, mütləq olacaq, deyirəm.

**- Bəs, o gənci necə inandırırsız?**

- Bunun bir tək cavabı var. Bilirsiz, İlham Əliyev hakimiyyətə gələndən xalq deyirdi ki, onun hakimiyyəti Qarabağda bir qarşı torpaq belə ala bilməyəcək. Deyirdilərmi? Hamı deyirdi. Nəticədə nə oldu? İlham Əliyev hakimiyyəti torpaqları aldı. Bu niyə baş verdi? Çünki xalq döyüş istəyirdi, vuruşmaq istəyirdi və oldu da. 27 ildir, problemi danışıqlar yolu ilə həll etməyə çalışırdılar. Amma bir nəticə əldə olunmurdu. Sonda dövlət başçısı xalqın istədiyini etdi. İlham Əliyev və hakimiyyəti xalqın dediyinə gəldi. Xalq istəyirdi Türkiyə ilə bir yerdə olsun. Bu da həyata keçdi. İndi xalq nə istəyir? Demokratiya. O da olacaq. Xalqın istəyini etdikcə, ona qarşı sevgi-hörmət də artdı və tarixə Zəfər qazanan bir Ali Baş Komandan kimi düşdü. Bu xalq artıq qalib xalqdır. Qalib xalqın düşüncələri də fərqlidir. Buna görə də onlar demokratiya istəyirlər və bunu da alacaqlar.

**- Azərbaycan Yüksəliş Partiyası olaraq bu açılıma hazırsınızmı?**

- Bizə sual verirlər ki, partiya olaraq hədəfiniz nədir? Mən də deyirəm ki, bizim hədəfimiz xalqı aktiv siyasətə gətirməkdir. Əgər bu olmayacaqsa, bizim partiya kimi hər hansı hədəfdən danışmağa haqqımız yoxdur. Yəni Azərbaycanda hakimiyyəti bir qrup məmur idarə edəcəksə, xalq bizə dəstək olmayacaqsa, biz heç nəyə nail olmayacağıq. Ona görə bizim birinci hədəfimiz xalqı aktiv siyasətə gətirməkdir. Bəs bunu necə edə bilərik? Buna görə ziyalılarla bir araya gəlib müzakirələr açıb, yollar düşünürük.

**- Belə bir fikir ortaya atılıb ki, Rusiyada demokratiyalaşma olmasa, Azərbaycanda da olmayacaq.**

- Rusiyada demokratiyanın olmasına çox böyük ehtiyacımız var. Olmayacaq fikri ilə razı deyiləm. Amma olmasına hədsiz ehtiyacımız var. Rusiya qonşumuzdur. Həm də böyük və əbədi qonşumuzdur. Tarixdə həmişə qonşuların savaşı da olub, barışı da. Təcrübələr var. Biz təbii ki, millət olaraq savaşçı olsaq da, daxilən barışçı bir xalqıq. Yəni biz heç vaxt başqasının torpağına göz dikmərik. Amma bir məsələ var. Kim nə deyir desin, Rusiya iki yüz ildir, silahı verib erməninin əlinə, qanımızı tökür. Bizim hər bir Şəhidimizin qanında Rusiyanın əli var. Onun verdiyi silahlardır, igidlərimizi al-qana boyayan. Yəni biz istəyirik ki, nə olur olsun, Rusiyada demokratiya olsun. Bu, təkrar edirəm, gərək olduğundan da çox lazımdır. Amma bu o demək deyil ki, Rusiyada demokratiya yoxdursa, bizdə də olmayacaq.

**- "Qafqaz evi" qurmaq mümkündürmü?**

- Mən buna çox inanıram. Əslində, "Qafqaz evi"nin əsası 1992-93-cü ildə qoyulmuşdu. Artıq yeni Qafqaz inşa olunur. Həm də yeni dizaynda. Yeni Qafqazın memarı Türkiyə və Azərbaycandır. Bir qədər də Gürcüstan. Mən həmişə deyirəm ki, Gürcüstanı mütləq proseslərə cəlb etmək lazımdır. Çünki onlar bizim münaqişələrin içində aktiv rol alırlar.

"Qafqaz evi"nin yenidən qurulması yaxın müddətdə mümkün ola bilər. Çünki ortada Türkiyə var, onun gücünü artıq hər kəs etiraf edir və bilir. Türkiyə olmasaydı, bizim İkinci Qarabağ savaşında qalib gəlməyimiz çətin olardı.

**- Bayaq siyasi partiyalar haqqında danışarkən mənə bir məqam maraqlı gəldi. Məsələn, Ədalət Vəliyev əlli partiya sədrini qəbul edir. Bundan sonra onların hər biri ofislə təmin olunur, həmin partiyalara resurs ayrılır. Bu, beləmi olmalıdır?**

- Gəlin belə danışaq: Uzun müddət ölkədə siyasi dözümsüzlük hökm sürüb. Müxalifət liderlərinə qarşı siyasi həbslər, anti-təbliğat və s. aqressiv xətt yürüdülüb.

Digər tərəfdən "Bizi əzirlər, biz də söyək" kimi əlacsızlıqdan və siyasi tərbiyəsizlikdən doğan qəbuledilməz söyüş xətti təəssüf ki, cəmiyyət tərəfindən xoş qarşılandı. Bu məsələnin müsbət qarşılanmasında hakimiyyətin suçu daha çoxdur. Məişət səviyyəsində qarşılıqlı əxlaqsızlıqda ittihamlar ölkəni yavaş-yavaş xaosa götürürdü. Bu proseslərin getdiyi bir zamanda Prezident Administrasiyasından Ədalət Vəliyevin qeydə alınmış partiyaları qəbul etməsi və Prezidentin məktubunu siyasi partiyalara təqdim etməsi siyasi münasibətlər sisteminin dialoqa keçid dövrü kimi qiymətləndirilə bilər.Doğrusu, bütün neqativ reaksiyaların səbəbini başa düşsəm də, dialoq təşəbbüslərinə qarşı münasibəti dəstəkləmirəm.

Siyasi münasibətlər sisteminin əsas mahiyyəti dialoqdan keçir. Dialoqa doğru hər bir addım təqdir olunmalıdır. Ayrı-seçkilik qoyulmadan hər bir siyasi qüvvə danışığa çağırılmalıdır. Partiyaların qərargah və maddi dəstəyi dövlət tərəfindən rəsmən təmin olunmalıdır ki, sonradan "cib müxalifəti" formalaşmasın. 30 illik dövlətin möhkəmlənməsi demokratiyadan keçdiyi kimi demokratik institutlar da danışıqlar və müzakirələr əsasında formalaşır. Bütün hallarda söyüş və aqressiya adekvat addımlar doğurur. Bilirəm, savaşı müxalifət başlatmadı, amma bunu davam etdirmək də gərəksiz fəaliyyətdir. Bəzən bu aqressiya müxalifət partiyalarının bir-birinə münasibətində qarşılıqlı ittihamlar şəklində ortaya çıxır. Hakimiyyətə işləyir, hakimiyyətə satıldı - ifadələri siyasi münasibətlər sisteminin qeyri-adekvat formalaşmasının nəticəsidir.

**Söhbətləşdi: İsmayıl Qocayev**

# Polad Həşimovun anası danışdı

## Şəhid valideynləri və övladları Şuşada olub



**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin, Müdafiə Nazirliyinin dəstəyi və "Fire Land Production"ın təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları üçün "Mənim atam qəhrəmandır" layihəsinin növbəti silsilə tədbiri bu dəfə Şuşa şəhərində keçirilib.**

Tədbirin məqsədi torpaqlarımız uğrunda canından keçən qəhrəmanları bir daha anmaq, onların övladlarına xalq qayğısının daimi olacağını bir daha hiss etdirmək, şəhid balalarının səmərəli istirahətini təşkil etmək olub.

Şəhid övladları səhər saatlarında hərbi polisin müşayiəti ilə onlara ayrılmış avtobuslarda Şuşa şəhərinə istiqamət alıblar. Şuşa şəhərinə "Zəfər marşı"nı ifa edərək daxil olan şəhid övladları tədbirə öz atalarının rəsmi, digər uşaqlar subay şəhidlərimizin rəsmləri həkk olunmuş geyimlərdə, şəhid anaları isə öz övladlarının rəsmi olan və "Mənim qəhrəmanım" yazılmış geyimlərdə qatılıblar.

Tədbirin gedişində şəhid anaları Şuşa qalasının önündə şəhidlərin ruhuna ehsan bişirərək hazırda Şuşada xidmət edən əsgərlərə paylayıblar.(report)

Daha sonra tədbirin rəsmi hissəsi baş tutub. Rəsmi hissədə aparıcı Nərgiz Cəlilova qəhrəman övladlarını, şəhid analarını, şəhid xanımlarını və tədbirə qatılan digər qonaqları salamladıqdan sonra hamını müzəffər ordumuzun şəhid qəhrəmanlarını bir dəqiqəlik sükutla yad etməyə çağırıb.

Sonra tədbirin ikinci aparıcısı Lalə Azərtaş general-mayor Polad Həşimovun anasını Səmayə xanımı çıxış üçün dəvət edib.

"Bu torpaqları gördükcə bir daha təsəvvür edirəm ki, burada necə ağır döyüşlər gedib, oğullarımız, şəhid balalarımız necə qəhrəmanlıqlar göstərib" - deyən şəhid anası övlad həsrətinə dözmək çətin olsa da, oğlunun zəfərimizin bir parçası olması ilə qürur hissi keçirdiyini deyib.

O, "Mənim atam qəhrəmandır" tədbirinin təşkilatçılarına dərin minnətdarlığını bildirərək Şuşaya ayaq basdıqları üçün xoşbəxt olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Aydın Kərimov öz növbəsində şəhid analarına belə qəhrəman övladlar yetişdikləri üçün minnətdarlıq edərək qəhrəman oğullar var olduqca bu Vətənin də var olacağını deyib.

Tədbirdə çıxış edən "Fire Land Production"un rəhbəri Cəlal Qurbanov da öz növbəsində tədbirin əsas məqsədinin öz qanı ilə tarix yazan hər bir şəhidimizin uşaqdan böyüyə hər kəsin yaddaşına həkk olunması, daim qürurla xatırlanması olduğunu bildirib. Dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin şəhid ailələrini hər zaman diqqətdə saxladığını vurğulayan C.Qurbanov bu tədbiri Şuşada keçirməyin onlar üçün şərəf olduğunu deyib.

Rəsmi hissənin sonunda Aydın Kərimov və Məftun Abbasov şəhid övladlarına "Xarıbülbül" döş nişanı hədiyyə ediblər.

Daha sonra qəhrəman şəhidlərimizin övladları əsgərlərimizlə birlikdə Şuşa qalasının önündə olan "Xarıbülbül" nişanını əsən güclü küləklər səbəbindən boşaldığı üçün torpağa bərkidiblər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

“Gənclərimiz türk tarixi və ədəbiyyatı ilə daha yaxından maraqlanmağa başlayıblar”




# Qarabağ Zəfəri yeni üfüqlər açıb

## Hədəfimiz böyüdükcə, millət olaraq da böyüyürük

**Ölkədə koronavirus infeksiyasının sürətlə yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası (MEK) da bir çox müəssisələr kimi oxucularına elektron (onlayn) xidmət göstərir.**

MEK-dən bildirilib ki, bu müddət ərzində kitabxananın zəngin fondlarına əsas müraciət AMEA-nın elmi-tədqiqat institutlarından, həmçinin tədqiqat işi aparan alimlər, ali məktəb müəllimləri, tələbələr və müxtəlif sahələrdən olan geniş oxucu kütləsi tərəfindən edilib. Mərkəzi Elmi Kitabxananın Xidmət şöbəsinin müdiri Ofeliya Yunusovanın verdiyi məlumata əsasən, pandemiya dövründə kitabxanaya edilən müraciətlərin statistikasına nəzər saldıqda daha çox elmi-tədqiqat mərkəzləri tərəfindən elmi araşdırmalarla bağlı müraciətlər üstünlük təşkil edib. Elmi əsərlər jurnallarına, siyasi, tibb, tarix və xarici ədəbiyyatlara, xüsusilə türk ədəbiyyatlarına ehtiyac yaranıb. 44 günlük Vətən müharibəsi dövründə qazanılan şanlı qələbəmizlə əlaqəli qəzet və jurnal materiallarına və digər nəşrlərə müraciətlər olunub. ”Nizami Gəncəvi ili”ndə oxucular tərəfindən dahi şairin yaradıcılığına məxsus kitablara maraq daha da artıb. MEK-ə edilən müraciətlər arasında müxtəlif yaş kateqoriyasında olan oxucular, xüsusilə gənclər bədii kitablara daha çox üstünlük veriblər.

**AMEA əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli ”Şərq”ə açıqlamasında bildirib ki, son zamanlar türk tarixinə və ədəbiyyatına maraq xüsusilə artıb. O qeyd edib ki, elmi jurnallara, siyasi, tibb, tarix və xarici ədəbiyyatlara, xüsusilə türk ədəbiyyatlarına ehtiyacın yaranması heç də təsadüfi deyil:** ”Elm sahəsində müəyyən irəliləyişlərin əldə olunmasından sonra bu cür əsərlər maraq yenidən oyanıb. Xüsusilə, 44 günlük



Vətən müharibəsindən sonra əldə etdiyimiz zəfər həm yeni qələbəmizə, həm də tarixi keçmişimizə maraq oyatdı. Məhz bu səbəbdən xalqımız həm yeni, həm də köhnə tarixini yaxından öyrənməyə çalışır. Ötən il əldə etdiyimiz Qarabağ Zəfəri gənclərimiz arasından yeni üfüqləri oyatdı. Çox sevindirici haldır ki, gənclərimizin bir çoxu türk tariximizlə daha yaxından maraqlanmağa başlayıb. Türkiyənin Azərbaycanla bir çox sahələrdə yaxından əməkdaşlığı, yəni bir çox anlarda birgə hərəkət etməsi də buna öz müsbət təsirini göstərir. Təbii ki, bu amillər gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsində və vətənpərvərlik hisslərinin tərbiyəsində mühüm amildir. Ona görə də gənclərimizin türk tarixinə maraq göstərməsini təqdirəlayiq hesab edirəm. Pandemiya dövrü olduğundan çox təəssüflər olsun ki, Mərkəzi Elmi Kitabxana, Mirzə Fətəli Axundov adına kitabxana və s. kitabxanalarımız tam şəkildə fəaliyyət göstərə bilmir. Ancaq bütün bunlara baxmayaraq gənclərimiz istər əyani, istərsə də virtual formada türk ədəbiyyatları ilə maraqlanırlar. Ümumiyyətlə, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan gənclərimizin özünə inamını da artırdı və gələcəyə daha nikbin baxmasına müsbət təsir göstərdi. Ümid edirəm ki, pandemiya tamam bitdikdən sonra istər gənclərimiz, istərsə də dahi mütəffəkirlərimiz, siyasi xadimlərimiz tariximizlə, ədəbiyyatımızla daha yaxından maraqlanacaqlar”.

**F.Ələkbərli diqqətə çatdırıb ki, orta məktəblərdə ortaq türk tarixinin tədrisinin başlanılması və Zəfər tarixinin tədris olunması gənclərimiz arasında vətənpərvərlik hisslərinin tərbiyəsinə müsbət təsir göstərəcək:** ”Çünki onlar yeni nəslin nümayəndələridir və Müstəqil Azərbaycanın övladlarıdır. Onlar bu müstəqilliyi nəinki qorumaq, gücləndirmək, eyni zamanda Azərbaycanımızın daha da güclənməsini öz qarşılarında görəcəklər. Onlar indi özlərini 50-60 milyonluq Azərbaycanlı çərçivəsində görürlər. Bu mənada onlar artıq təkcə Azərbaycan Respublikasının sərhədlərini, yaxud da onun tarixi ədəbiyyatı ilə kifayətlənmək istəmirlər,onlar bütöv Azərbaycanı da öyrənmək istəyirlər. Yəni hədəflərimiz daha da genişlənir. Hədəflərimiz böyüdükcə tarixə, ədəbiyyata və digər məsələlərə marağımız da təbii ki, artır. Üstəlik də ümumtürk tarixinə və bütöv Azərbaycan tarixi ədəbiyyatına. Təbii ki, yeni nəslin bu məsələ aktiv olmasını təbii qarşılamaq lazımdır. Mənə elə gəlir ki, pandemiyadan bitdikdən sonra bu daha da güclü bir sürət alacaq. Gənclərimizin türk tarixinə, ədəbiyyatına marağı daha da güclənəcək. Bu sahədə çalışmalar, elmi işlər də çox olacaq. Çünki artıq Azərbaycan böyüyür və Türk xalqların birliyi də güclənir”.

**Aynurə Pənahqızı**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# “Məscidlər donuzlarla murdarlananda "şirin" səsi çıxmadı"

Ağa Hacıbəyli: ”Bizim ”şir” illərdir küfrə, zalıma, erməniyə xidmət edir”



**”Qarabağ qan ağlayanda, şəhərlərimiz yandırılıb, insanlarımız dağlananda, Xocalı atəşə veriləndə, qız-gəlinlərimiz ismətlərini qorumaq naminə özlərini qayadan, uçurumdan atanda ”şir” harada idi?!”. Bu sözləri ilahiyyatçı-alim Ağa Hacıbəyli deyib.**

İranlı din xadiminin Azərbaycana qarşı ittihamlarına cavab verən ekspert bildirib ki, məscidlər donuzlarla murdarlananda, Quranlar yandırılanda, müqəddəs abidələrimiz yerlə-yeksan ediləndə də ”şirin” səsi çıxmadı: ”Artıq xəyanət ortaya çıxdı, xainlər bir-bir bəlli oldu. Təcavüzkar Ermənistana gecə-gündüz yardım edən, məzarlıqlarımızı belə yox edən bir zehniyyətə neft, benzin, qaz və daha nələr verən bir düşüncə sahibi şir ola bilməz. Şir meşənin şahıdır, qarnı doyanda 20 saat yatar. Ancaq bizim ”şir” illərdir küfrə, zalıma, erməniyə xidmət edir. İmam Əli buyurur ki, ”Allah qulunun zahirinə baxar, daxilini görər”. Deyəsən, Rəbbimiz artıq bəzi simaların maskalarını sökür. Bizim Allaha olan sarsılmaz inamımız, birliyimiz sayəsində illərdir körüklənən fitnə odunu cəmi 44 günə söndürdük. Qardaş ölkələr bizim yanımızda durdu. Sevincimizə sevinib, kədərimizə hüznləndilər. Düşmənlərimiz isə hələ də ”hay nəsli”nə hayan durur, ”Xanın kəndi”nə qanunsuz səfərlər edir. İndi Qafqazın dağlarına Azərbaycan aslanları hakimdir. Qarabağın vadilərində başqa ”şir” peyda olarsa, ya qanı axar, ya da quyruğunu qısıb zağasına çəkilər. Böyük və haqq bir dini kiçik dünya mənfəətlərinə satanların Yeziddən fərqi nədir? İstəyirsən özünə ”şir” de, nə fərqi var ki...”.

**A.Hacıbəyli qeyd edib ki, belə ”şirlər” şəhidlərimizin qanı bahasına fəth etdiyimiz müqəddəs torpaqlardan uzaq olmalıdır:** ”Möhtəşəm Zəfərimizə həsəd edənlər bilməlidir ki, inşallah, Zəngəzuru da, digər itirdiklərimizi də tək-tək söküb alacağıq. Allah dövlətimizi, Vətənimizi, millətimizi, üçrəngli bayrağımızı daim var etsin”.

**İsmayıl**

# Bayden BMT tribunasında öyündü

## “Amerika ilk dəfədir ki, heç yerdə müharibə aparmır”

**”BMT Baş Assambleyası adəti üzrə sentyabrın 20-də öz işinə başladı. Böyük və kiçik ölkələrin liderləri BMT tribunasından istifadə edərək çıxışlar edir, dərdlərini beynəlxalq aləmə danışırlar”.**

Bunu politoloq Elxan Şahinoğlu deyib.

Ekspert bildirib ki, Co Bayden ABŞ prezidenti kimi ilk çıxışını BMT-nin 76-cı sessiyasında edib: ”Baydenin çıxışı zamanı iki tezis diqqəti çəkdi. Birincisi, Baydenin sözlərinə görə, Amerika ilk dəfədir ki, heç yerdə müharibə aparmır. İkincisi, Amerika ”soyuq müharibə”nin bərpasında maraqlı deyil, müxtəlif dövlətlərlə anlaşmazlılqarı danışıqlar yoluyla həll etməyə maraq göstərir. Amerika hazırda müharibə aparmasa da, bu durum uzun çəkməyəcək. Amerika İkinci Dünya müharibəsindən sonra böyüklü-kiçikli onlarla müharibədə ya iştirak edib, ya da səbəbkarı olub. Bu sırada 1950-ci illərdə Koreya, 1960-1970-ci illərdə Vyetnam müharibələrini göstərmək olar, Qrenada adasına desant çıxarma, İraq, Əfqanıstana hərbi müdaxilələr, Afrika və Cənubi Amerikadakı müharibələrdə və çevrilişlərdə qeyri-rəsmi iştiraklar da bu qəbilədəndir. Baydenin Amerika qoşunlarını Əfqanıstandan çıxartması başqa münaqişədə iştirak etməyəcəyi anlamına gəlmir. Digər tərəfdən, Amerikanın xarici və təhlükəsizlik siyasətində davamlılıq yoxdur. Yəni Baydendən sonrakı prezident Ağ Evin indiki rəhbərindən fərqli olaraq hesab edə bilər ki, Amerikaya kiçik müharibə lazımdır və qoşunlarını istədiyi bölgəyə göndərə bilər. Bu zaman Baydenin 2021-ci ilin sentyabrında ”biz müharibə istəmirik” sözləri xatırlanmayacaq. Co Baydenin ”biz ”soyuq müharibə” istəmirik” qərarını yalnız Ağ Ev sahibi verə bilməz. Əgər Konqres, Pentaqon, Dövlət Departamenti və ya Mərkəzi Kəşfiyyat İdarəsi hesab edirlərsə ki, Rusiya və ya Çinin siyasəti Amerika üçün real təhlükədir, bu halda Ağ Evdə oturan şəxs fərqli siyasət yürüdə - Moskva və Pekinə qarşı sanksiyalardan imtina edə bilməyəcək. Bayden çıxışında özü də dedi ki, kiçik dövlətləri və tərəfdaşlarını xarici təzyiqlərdən qoruyacaqlar. Belə olan halda Bayden, misal üçün, keçmiş prezidentlər Barak Obama və Donald Tramp kimi Ukraynanı Rusiyadan qorumalıdır”.



**E.Şahinoğlu hesab edir ki, Çin də Amerika ilə münasibətlərdə gərginlik istəmir:** ”Ancaq əgər Çin bölgədə hərbi gücünü artırırsa, müxtəlif adalara, o cümlədən Tayvana iddia edirsə, qonşuları - Hindistan, Yaponiya və Avstraliya sərt dildə danışırsa, Amerikanın özündə texnologiyaları oğurlamaqla məşğuldursa, tərəfdaşlıq alınmayacaq. İran Prezidenti İbrahim Rəisi BMT sessiyasına videkonfrans vasitəsilə qatılaraq ABŞ-ı bu sözlərlə sərt tənqid etdi: ”Bu il iki hadisə baş verdi. Yanvarın 6-da ABŞ Konrqesinə hücum edildi, avqust ayında Əfqanıstan Amerikanın işğalından qurtuldu. Kapitoli binasından Kabilə qədər hamıya ismarıc göndərildi: ABŞ-ın hegemonist sistemi inamsızlıq yaradır”. İndi bu sözlərin qarşılığında Baydenin Tehranla necə dil tapacağı sual doğurur. O biri tərəfdən Amerikanın strateji müttəfiqi İsrail Vaşinqtonu Tehrana qarşı siyasətini sərtləşdirməyə çağırır”.

**Aynurə Pənahqızı**

# Koronavirusu qripdən necə ayırd etməliyik?

## Öskürək və tənəffüs çətinliyi olanlar mütləq həkimə müraciət etməlidirlər

**Payız fəslinə keçid, havaların getdikcə soyuması mövsümi xəstəliklərin artmasına səbəb olur. Tənəffüs yolu ilə əlaqədar yaranan narahatlıqlar - öskürək, boğaz ağrısı və oxşar problemlərlə üzləşəndə ilk ağla gələn yeni növ koronavirus (COVID-19) infeksiütləq həkimə müraciət etməlidirlər: yasına yoluxma ehtimalıdır. Lakin həmin əlamətlər digər infeksion xəstəliklərlə də əlaqədar ola bilər.**

Həkim-terapevt Nahid Məhərrəmov deyib: ”Yuxarı tənəffüs yollarının iltihab və allergiyası olanlar COVID-19-a yoluxma zamanı qripəbənzər əlamətlərlə üzləşə bilərlər. Qripəbənzər əlamətlər, məsələn, quru öskürək, boğaz ağrısı, ishal, temperatur yüksəlməsi olduqda COVID-dən şübhələnmək olar. Lakin halsızlıq, yorğunluq, təngnəfəslik və temperatur yoxdursa, saturasiya 95-dən yuxarıdırsa, narahatlıq keçirməyə əsas yoxdur”.

Həkim-terapevt əlavə edib ki, qızdırma, öskürək və tənəffüs çətinliyi olanlar mütləq həkimə müraciət etməlidirlər. ”Lakin immunitetin gücləndirilməsi də vacib məsələdir, bunun ən səmərəli yolu isə düzgün və balanslı qidalanmadır. Payız aylarında C vitamini ilə zəngin qidalara daha çox üstünlük verilməlidir:



”Mövsümü xəstəliklərdən qorunmağın ən yaxşı yollarından biri qripə qarşı peyvənd olunmaqdır. Soyuqdəymə və zökəm hallarından qorunmaq üçün isə düzgün qidalanmaq, gündəlik rasiona mövsümə uyğun meyvə və tərəvəzlər daxil etmək və çoxlu maye içmək lazımdır. Gərgin iş rejimindən sonra istirahət etmək də immunitetin artırılmasına səbəb olur. Hər gün piyada gəzmək və fiziki fəallıq da immun sistemini gücləndirir. Şəxsi gigiyenaya diqqət yetirmək, maska taxmaq da xəstəliklərdən qoruyan əsas şərtlərdir”.

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında bildirib ki, payız fəslində müxtəlif viruslar yenidən aktivləşir. Həkim qeyd edib ki, koronavirusun özü də kəskin respirator xəstəlik olduğu üçün onun da artması gözləniləndir:** ”Virusların yenidən aktivləşməsi müxtəlif faktorlarla əlaqədar olur. Həm günəş şüasının aktivliyinin azalması, həm də havaların soyuması ilə əlaqədar olaraq insanlar qapalı məkanlara üz tuturlar. Belə yerlərdə havalandırmanın azalması virusların artmasına səbəb olur. Virusları bir-birindən tam ayırd etmək bir qədər çətindir, bunu yalnız analiz nəticəsində dəqiq müəyyənləşdirmək mümkündür. Amma bəzi əlamətlər var ki, bunları koronavirus və digər viruslardan tam ayırd etmək olur. Məsələn, koronavirusda burun axması müşahidə edilmir, bəzən bu, yüngül formada olur. Amma ümumi götürəndə burun axması müşahidə edilmir, əksinə, burunda quruluq olur. Təbii ki, digər viruslarda da burun axması, asqırma müşahidə edilir. Koronavirusda zökəm əlamətləri elə də qabarıq fonda olmur. Bundan əlavə, koronavirus tədricən başlayan bir xəstəlikdir. Yəni burda boğaz ağrısı ola bilər, yaxud da bir az ümumi narahatlıq, halsızlıq. Bir neçə gündən sonra artıq xəstəlik yavaş-yavaş kəskinləşməyə başlayır və qızdırma qalxır. Ancaq digər viruslarda və qripdə bu xəstəlik birdən-birə başlayır, yəni insan özünü xəstə hesab eləmədiyi halda bir günün içində boğaz ağrısı, asqırma, halsızlıq kimi hallar birdən-birə müşahidə edilir. Koronavirus da isə birdən-birə olmur. Digər xüsusiyyət koronavirusda qızdırmanın olmasıdır, bu, koronavirusda əsas simptomdur. Amma digər xəstəliklərdə qızdırma demək olar ki, olmur. Çox az hallarda immuniteti zəif olan insanlarda ola bilir. Ümumiyyətlə, qrip dediyimiz virus daha ağır gedişlidir. Bu da yaşlılarda pnevmoniyaya səbəb ola bilər”.

**Aynurə Pənahqızı**

# Cavid Zeynallı dərs keçdi

Yazıçı Kərамət Böyükçölün mətnə "böyük hesabla" uduzmağına təəccüblənib




"Böyükçöl ədəbiyyata borcunu ödəməlidir. Necə, onu özü yaxşı bilir. Daha çox oxumaq, yazmaq, daha çox ədəbiyyatla yaşamaqla borcunu ödəyə bilər"

**Yazıçı Cavid Zeynallı feysbuk hesabında Kərамət Böyükçölün "Əlqəmə" romanını tənqid edib. "Şərq" xəbər verir ki, o, sözügedən əsəri oxuduğunu söyləyib. Yazar bildirib ki, həmkarının kiçik mətnə "böyük hesabla" uduzmağı onu təəccübləndirib:**

"Deməli, son 5 ildə Kəramətin ictimai-siyasi obrazının, populyarlığının ulduzu nə qədər çox parlayıbsa, zövqü, ədəbi inkişafı, mətn yaratma bacarığı bir o qədər geridə qalıb. Markes deyirdi ki, yazıçının inqilabi borcu yaxşı yazmaqdır. Bu mənada K.Böyükçöl ədəbiyyata borcunu ödəməlidir. Necə, onu özü yaxşı bilir. Daha çox oxumaq, yazmaq, daha çox ədəbiyyatla yaşamaqla borcunu ödəyə bilər. Əgər "çırtma" janrında sosial-ictimai lağlağının şinelindən yenə çıxa bilməyib layk zənginliyində xoşhal olacaqsa, onun həqiqi ədəbi istedadına ancaq ağrımalı olacağıq. Hə, bu romanın cümlələri arasından boylanan məhz budur: həqiqi istedad. O istedad ki, fraqmentaldır, pərakəndədir, epizodikdir, sayrışandır. Onları yığıb yerbəyer etmək üçün zəhmət, intizam və daha nələr lazımdır. Paralel süjet, hansısa Qaraçöp kəndində əlyazma tapan "Əlqəmən"in izlənməsi, fahişə qadınla fəlsəfi-estetik söhbət, tanış qəhrəman cizgiləri, sonra süjeti idarə edə bilməmək, tələskənlik, kələfin ucunu itirmək... Və bütün bunlar 150 səhifəlik mətndə baş verir. Nəfəsi çatmamaqdır... Bəlkə, budur məsələ?! Əlbəttə, nəsr təcrübə və yaşantı faktıdır. Bu mənada bizim heç birimizi təcrübəsi və yaşantısı zəngin adam saymaq olmaz. Amma həyatın eskizini yaşamağın vaxtı da çoxdan keçib. İndi növbə həyatın özünü yaşamağa çatıb. Ümid edək, K.Böyükçölün infantil-eskiz nəsr təcrübəsi bununla bitəcək. Çünki bizim mühitdə onun kimi Azərbaycan dilində yaxşı yazmağı bacaran, şövqü və istedadı olan adamların sayı o qədər də çox deyil".

**Samirə**



## 8 milyon dollar...

Rihanna villasını satışa çıxarıb

**Dünya ulduzu Rihanna Los-Ancelesdəki villasını satışa çıxarıb. O, evini təxminən 8 milyon dollara satır və bu pulla yeni yatırım etmək istəyir.**

"Şərq" xəbər verir ki, müğənninin adı ötən ay 1,7 milyard dollarlıq sərvəti ilə "Forbes" jurnalının milyarderlər siyahısında çəkilib. Sənətçi satışa çıxardığı villasını 2017-ci ildə 6,8 dollara alıb. Həmin evi ayda 35 min dollara kirayə verib. Bu villada bir müddət öncə xoşagəlməz hadisə yaşandığı iddia edilib. Bildirilib ki, bir şəxs gizlincə müğənninin evinə girib və polis tərəfindən saxlanılana qədər burada yaşayıb. O zaman Rihanna evdə olmayıb və sözügedən olaydan sonra malikanəni kirayə verib.

Villanın 6 yataq, 8 hamam otağı var, bununla yanaşı malikanənin yanında qonaq evi yerləşir. Evdə hər cür şərait mövcuddur, məsələn, maşın qarajı, idman və sinema zalı, bilyard otağı, hovuzu, spası var. Rihanna Barbadosda bir villa, "Hollywood Hills"də 7 milyon dollarlıq malikanə, Los-Ancelesdə lüks bina evinin və digər müxtəlif daşınmaz əmlakların sahibidir.

**Samirə**



## "Nar" Tərtər və Füzuli məktəbinin birincilərini məktəb ləvazimatları ilə təmin edib

**22 sentyabr ilk dərs günündə "Nar" Vətən müharibəsi dövründə ermənilərin atdığı mərmilər nəticəsində zərər dəymiş məktəblərə dəstək olub.**

Mobil operator Füzuli rayonunun Aşağı Alxanlı, Aşağı Kürdmahmudlu, eləcə də Tərtər rayonunun Qapanlı və Soyulan kəndlərində yerləşən məktəblərin birinci sinfinə gedən şagirdlərini məktəb ləvazimatları ilə təmin edib. Bura 70-dən artıq məktəblinin tədris ili dövründə istifadə edəcəkləri məktəbli çantası, dəftər, rəngli karandaşlar və digər dəftərxana ləvazimatları daxildir.

"Nar" nümayəndələri məktəblilərlə görüşüb, hədiyyələri təqdim edib və onlara yeni tədris ilində uğurlar arzulayıblar. Görüşdə bildirilib ki, mobil operatorun əsas məqsədi müharibədən zərər çəkmiş təhsil ocaqlarına dəstək olmaqdır.

Azərbaycanda təhsilə, uşaq və yeniyetmələrin inkişafına hər zaman dəstək olan "Nar" məktəbləri kitabla və məktəb ləvazimatları ilə təmin etməyi artıq bir ənənə halına çevirib. Mobil operator uşaqlarda kitab oxumaq vərdişinin formalaşmasına dəstək olmaq və təhsilin önəmini aşılamaq məqsədilə uğurlu layihələr icra edib.

# "Fəxri ad almağa çox gecikmişəm"

Nadir Qafarzadə: "İnanın, dinləyicilərimin çoxu elə bilir ki, xalq artistiyəm"

**Son zamanlar sənət aləmində "Fəxri ad" üsyanı baş qaldırıb. Əvvəlcə müğənni Tacir Şahmalıoğlu video-müraciətlə ad istədiyini bildirib. Ondan bir müddət sonra Əməkdar artist Cavanşir Məmmədov "Şərq"lə həmsöhbət olarkən Xalq aristi adına layiq görülməsini dilə gətirib.**

Hələ pərdənin arxasında neçə-neçə titul sevdasında olan sənətçi var. Onlar isə bu diləklərini istər media, istərsə də sevənləri ilə paylaşmır, zamanı gələndə layiq görüləcəklərini düşünürlər.

**Fəxri adsız sənətçilərdən olan Nadir Qafarzadə "Şərq"ə açıqlamasında 1983-cü ildən səhnədə olduğunu söyləyib:**

"Azərbaycan dövlət televiziyasının uşaq kollektivlərindən gəlmişəm. 90-cı illərin sonundan peşəkar səhnədəyəm. Müasir bəstələr ifa etmişəm, klassik əsərlər oxumuşam və bunları gənc nəslə tanıtmışam. Klip çəkdirmişəm, ifalarım radiolarda səslənib. Bu günə qədər dövlət tədbirlərindən, konsertlərdən qonorar almamışam. Deyilənə görə, qonorar yazılıb, lakin mən qəbul etməmişəm, bunun vətəndaş borcum olduğunu düşünmüşəm. Baxmayaraq ki, həmkarlarımın hamısı qonorar alıb, bu gün də fəxri adları var. Məsələn, hərbi hissələrdə konsertlərim olub, hərbi dəniz donanmalarına, cəbhə bölgələrinə yollanmışam. İllərini sərf edirsən, əziyyət çəkirsən, onun müqabilində hansısa fəxri ada layiq görülürsən. Məndən sonra sənətə gələnlər övladlarımla yaşıddırlar, sənət təcrübəm qədər yaşları yoxdur. Amma hamısı fəxri ad alıblar. Əvvəllər kimsə tapşırırdı, "day-day"ın olmalı idi. Kimisi də pul ilə fəxri ad alırdı. Bəlkə də vəziyyət indi fərqlidir. Necə olur ki, illərdir səhnədəyəm, fəxri adım yoxdur, dünən sənətə gələnin var. Bu nə vaxt yatdı, yuxu gördü ki, əməkdar artist oldu? Hansı əməkdən söhbət gedə bilər? Danışanda da deyirlər, əks fikir söylədi, amma haqq-ədalətdən bəhs edirəm. Qazandığım pulları da sənətə həsr etmişəm. Artıq 50 yaşım var, deyirlər, uşağın qayğısına vaxtında qalmaq lazımdır. Mən də uşaq deyiləm, ortayaşlı bir insanam, bundan sonra nə isə gözləmirəm. Bizim fəxri adsız dünyadan köçən çox sənətkarımız olub. Düşünürəm ki, oxuduğum əsərlər, nəğmələr daim yaşayacaqlar, məni xatırlayan insanlar olacaq. Fikirləşməyəcəklər ki, onun fəxri adı yox idi, deyəcəklər yaxşı sənətçi idi. Sənətkarlıq fəxri adla ölçülmür. Elə xalq artistlərimiz var ki, not, yaxud da mahnını hansı muğam üzərində oxuduqlarını bilmirlər. (Bu əsnada müğənnini avtomobil idarə edərkən telefonla danışdığı üçün yol polisi saxlayır. O, söhbəti dayandırmalı olur və bir müddət sonra yenidən bizimlə əlaqə saxlayır -red)".



**N.Qafarzadə onu da əlavə edib ki, Mədəniyyət naziri Anar Kərimovdan gözləntiləri var:** "Ədalətlə qərar verməklərini çox istəyirəm, çünki mən artıq gecikmişəm. O da düzdür ki, fəxri ad nəyisə həll etmir, amma bizə stimul verir. Olmayanda adam inciyir, əziyyət çəkən insanı qiymətləndirmək lazımdır. İnanın, dinləyicilərimin çoxu elə bilir ki, xalq artistiyəm. Belə olmadığımı söyləyirəm, təəccüblənirlər. Yəqin qismət deyilmiş. Ümid edirəm ki, gələcəkdə bu məsələyə baxılacaq, mənim də adım siyahıya salınacaq".

**Samirə**


Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu

KURSLAR

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com


# HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Qax rayon İcra və Probasiya Şöbəsinin 20.09.2021-ci il tarixli, 2069/1 saylı sifarişi ilə "Qax Toxucu" ASC-yə məxsus 19 ədəd taxta çarpayı açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 04 oktyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti ümumilikdə 570 (beş yüz yetmiş) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni 57 (əlli yeddi) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

Hərracın təşkilatçısı
"Əmlak Hərrac Mərkəzi" MMC

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 06.09.2021-ci il tarixli, 13166-6152/2019-15-27 saylı sifarişi ilə, 2 ədəd, ümumi çəkisi 14,5 qram olan boyunbağı (əyarı 583) və (əyarı 583) 1 ədəd, çəkisi 8,6 qram olan üzüyə dair 22 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qızıl-zinət əşyaları ilkin satış qiyməti olan ümumilikdə 1.247,4 (min iki yüz qırx yeddi manat qırx qəpik) manatdan 10% aşağı, yəni 1.123 (bir min yüz iyirmi üç) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 04 oktyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 112 (bir yüz on iki) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

--------------------------------------

Bakı şəhəri Binəqədi rayon İcra Şöbəsinin 17/68-193601-16 saylı, 08.09.2021-ci il tarixli sifarişi ilə, 450 kv.m olan qeyri yaşayış sahəsinin, yəni Binəqədi rayonu Xocasən bələdiyyəsinin balansında olan 103 nömrəli məktəbə (birmərtəbəli tikili) dair 22 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin məktəb binası ilkin satış qiyməti olan 90.000 (doxsan min) manatdan 10% aşağı, yəni 81.000 (səksən bir min) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 04 oktyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 4050 (dörd min əlli) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

***(Əlavə olaraq "Qeyd"ə bax).***

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

*Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1763



## Körpəsini itirməkdən qorxub

### Hamilə qadın peyvənd olunmadığına görə peşmandır

**Türkiyədə 7 aylıq hamilə qadın peyvənd olunmadığına görə peşman olduğunu deyib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Amasiyada koronavirusa yoluxan 42 yaşlı Nuray Dülger hər kəsi peyvənd olunmağa çağırıb. O bildirib ki, vaksin olunmadığına görə xəstəliyi çox ağır keçirib: "Virus artıq ciyərlərimə düşmüşdü. Hər kəsə peyvənd olunmağı tövsiyə edirəm. Xəstəxanaya oynaq ağrısı və yüksək hərarət şikayətləri ilə müraciət etmişdim. Ancaq "Covid-19" testinin nəticəsi pozitiv çıxdı. Bu səbəbdən 16 gün xəstəxanada müalicə almalı oldum".

**Nuray Dülger körpəsini itirməkdən qorxduğu üçün peyvəndlənmədiyinə görə peşmanlığını ifadə edib:** "Kəndimizdə çox insan yaşayır, təmaslar olur, haradan və kimdən keçdiyini bilmirəm. Körpəmi itirəcəyimdən qorxduğum üçün peyvənd olunmadım, amma buna görə çox peşmanam. Virus ciyərlərimə qədər düşdüyü üçün uzun müddət antibiotik və serum müalicəsi aldım. Həqiqətən bütün bunlar çox çətin idi. Ona görə də hər kəsi peyvənd olunmağa səsləyirəm".

**Aynurə**

## İflic olan qız ölüm-qalım mübarizəsi aparır

### Sərbəst qalan şəxs NATO səlahiyyətlisi olub



Ötən il iyulun 1-də Muğlanın Bodrum vilayətində piyada keçidində 19 yaşlı Ezgi Aydındağı vuran maşının sürücüsü hələ də sərbəstdir. Bu barədə "Şərq" "Haber Global"a istinadən xəbər verir. Bildirilir ki, hadisə nəticəsində iflic olan qızın müalicəsi davam edir. Qızı vuran maşının sürücüsü isə ABŞ vətəndaşı Reginald Thevendir. Onun NATO-da vəzifə sahibi olduğu bildirilir. Qızın anası Çiğdem Yılmaz şübhəlinin yüzdəyüz günahkar olduğunu söyləyib. Onun sözlərinə görə, ABŞ vətəndaşı verdiyi vədləri yerinə yetirməyib, telefon zənglərinə cavab vermir və bircə günlük olsa belə, həbsdə yatmayıb.

**Kənan**





**Məlahət Rzayeva**

# Fransız alimlər araşdırma aparıb

## Siqaret çəkənlər koronavirusa daha az yoluxurlar

**Fransada aparılmış bir araşdırma nikotinin COVİD-19 virusunun orqanlara yapışmasının qarşısını aldığı və siqaret çəkənlərin virusa qarşı daha yüksək müdafiəyə malik olduğu iddiasını irəli sürür.**

Bu, nə dərəcədə doğrudur və elmi təsdiqi varmı? Məlumdur ki, koronavirus həyatımıza daxil olandan siqaret çəkənlərin xəstəliyi daha yüngül keçirdiyi, siqaret tüstüsünün virusun ağ ciyərlərə, bronxlara, nəticə etibarilə ümumən orqanizmə düşməsinin qarşısını aldığı barədə danışılır. Bu mübahisə hələ də bitməyib. Siqaret çəkənlər sanki özlərini daha çox güvəndə hiss edirlər. Halbuki, siqaretin orqanizmin bir nömrəli düşməni, ən ağır xəstəliklərin mənbəyi olması, siqaret asılılığı olanların koronavirusu daha ağır keçirməsi, nəfəsalmada böyük çətinlik yaşamaları, ağ ciyərlərin məhv olması məlum faktlardır.

### Çin "yox", Fransa "hə" deyir

Bu haqda Almaniyanın "Deutsche Welle" (Türkcə) saytında məlumat yerləşdirilib. Çində nəşr olunan tibb jurnalında yayımlanmış elmi araşdırmada qeyd edilir ki, siqaret çəkənlər COVİD-19-u uzun müddət, həm də ağır keçirir, ölüm riski də artır. Lakin Fransanın Pasteur Jean-Pierre Changeaux İnstitutunun neyrobioloqları apardıqları araşdırmada başqa nəticələr əldə ediblər. İnstitutun alimləri bildirir ki, nikotin zənciri vasitəsilə COVİD-19 viruslarının qarşısını almaq mümkündür. "Qeios" elmi portalında bu mövzuyla bağlı daha ətraflı məlumat verilir. Fransız tədqiqatçılar əldə etdikləri nəticənin Çində aparılan tədqiqatların nəticələri ilə əkslik təşkil etdiyini bilir. Lakin bildirirlər ki, qeydiyyata aldıqları koronavirus xəstələri arasında siqaret çəkənlərin sayı olduqca azdır. Fransız tədqiqatçılar 500 COVİD-19 xəstəsi üzərində araşdırma aparıb, onlarda 150 nəfərin xəstəliyi yüngül keçirdiyi, 350 nəfərin də xəstəxana şəraitində müalicə olunduğunu müəyyən ediblər. Fransa Xəbər Agentliyi - AFP-yə müsahibə verən daxili xəstəliklər üzrə həkim Zahir Amoura araşdırmaya cəlb olunan xəstələr arasında siqaret çəkən cəmi 5 nəfərin olduğunu vurğulayıb. Yaş və cinsi fərqlilikləri də əlavə etməklə, toplamda siqaret çəkənlərin ümumi sayına baxdıqda, COVİD-19 xəstələri arasında siqaret çəkənlər 80 faiz daha azdır. Buna bənzər araşdırma İtaliyada da aparılmışdı. "Giuseppe Lippi və qrupu"nun tədqiqatında da siqaret çəkənlərin çəkməyənlərə nisbətən koronavirusa daha az yoluxduğu nəticəsi ortaya çıxmışdı.



### Nikotin qoruyucudurmu?

Fransa alimləri məhz bu fikirdədir ki, nikotin COVİD-19-a qarşı müdafiə effektinə malikdir. Tədqiqatçılar "nikotin COVİD-19-un obyekt seçdiyi hüceyrə reseptorlarına yapışaraq virusun ora yerləşməsinin qarşısını alır". Yəni belə demək mümkünsə, nikotin olan yerdə daha başqa virusa yer qalmır. Virus yapışmaq üçün boş dəlik-deşik tapmır. Bu hipotez hazırda Parisin La Pitie-Salpetriere Xəstəxanasında araşdırılır.

### Əks fikirlər daha güclüdür

Elm adamları ACE2 reseptorlarının virusu bloklamaq kimi bir gücə sahib olmasına dair ortaq fikirdə deyillər. ABŞ-dakı Virginia-Fairfaxda çalışan nevroloqlar James L.Olds və Nadine Kabbani bu məsələdə fərqli düşünürlər. Onlar apardıqları araşdırmalarda nikotinin, əksinə, hüceyrə reseptorlarına mənfi təsir etdiyini, zərər verdiyini irəli sürürlər. Nikotin sayəsində virusun hüceyrələrlə təmasının daha da asanlaşdığı iddiasını irəli sürən elm adamları var. Kimin, hansı hipotezin doğru olduğu, yəqin ki, qarşıdakı illərdə aparılacaq elmi araşdırmalarda biləcək. Lakin istisnasız olaraq bütün həkimlər tütündən istifadənin çox riskli olduğu qənaətindədir. Koronavirusun siqaretdən zərər görən ağ ciyərlərə daha ağır təsir etdiyi məlumdur. Bu səbəbdən alimlər siqaretdən tez bir zamanda imtinanı məsləhət görürlər. Siqaret çəkmək orqanizmdə xərçəngin yaranmasına səbəb olan maddələrin orqanizmə daxil olmasını sürətləndirir. Nikotinin bir zəhər olduğu unudulmamalıdır. Siqaret çəkən insan hər nəfəsdə 1-3 milliqram arası nikotin qəbul edir. Bir siqaretin tərkibində isə ümumilikdə 12 milliqram nikotin var. Orqanizmə zərər verən bir maddənin hansısa xəstəliyə qarşı ola biləcəyini düşünüb yanlış addımlar atmaqdansa, siqareti atmaq daha xeyirlidir.



## Ölü tapılmışdı...

### Şok detallar dünyanı heyrətə saldı



**ABŞ-da 3 həftə axtarışları davam edən, ölkənin gündəmindən düşməyən itkin gənc qız Gabbi Petitonun cəsədinin tapılması barədə FTB məlumat yayıb.**

İtkin qızın cəsədi Milli Park ərazsində tapılıb. 22 yaşlı Gabbi nişanlısı ilə ağ mikroavtobusda karvan turuna çıxıbmış. Nişanlılar ölkədəki bütün milli park ərazilərini gəzməyi planlaşdırıbmış. Ortaya çıxan detallar dünyanı heyrətə gətirib. Cütlük karvan turuna Nyu-Yorkdan başlayıb. Yolda çəkdikləri videoları "YouTube" kanalında yerləşdiriblər. Gabbi gəzinti boyunca ailəsiylə daim əlaqə saxlayırmış. Onunla əlaqə avqust ayının sonlarında itib. Sonuncu dəfə cütlük 24 avqustda Utahdakı bir oteldən çıxarkən görüntüyə alınıb. Bundan sonra onlardan heç bir xəbər alınmadığından sentyabrın 1-dən itkin hesab ediliblər. Qızın nişanlısı Laundrie öz ailəsinin yanına tək qayıdıb. Bu səbəbən də polisin şübhələri onun üzərinə yönəlib. Lakin oğlan da az sonra itkinlərə qarışıb. Polis ailə üzvlərini dindirmək üçün evə gələndə bir qrup gənci "Gabbi hardadır?" şüarı ilə evin önündə görüb. Gənclər ailəni Gabbinin axtarışlarına dəstək verməməkdə günahlandırırmış. Yerli media FTB-yə istinadən Vyoming Milli parkında cəsəd tapıldığı xəbərini yaydıqdan sonra diqqət bu məsələyə yönəlib. Tibbi ekspertiza cəsədin Gabbiyə aid olduğunu və gənc qızın qətlə yetirildiyini təsdiqləyib. Florida polisi əsas şübhəli kimi Gabbinin nişanlısının axtarışlarına başlayıb. Qızın nişanlısı Brian Laundrie hələ də tapılmayıb. Müxtəlif ərazilərdə yaşayan sakinlərdən ağ minibusda gəzintiyə çıxan cütlüklə bağlı ifadələr alınıb. Bəzi şahidlər cütlüyün mübahisə etdiyini, oğlanın qıza fiziki zor tətbiq etdiyini deyiblər. Gabbinin nişanlısı da əvvəlcə polisə verdiyi ifadədə psixoloji problemləri olduğunu, Gabbi ilə tez-tez mübahisələri yarandığını deyibmiş. Hazırda FTB cinayətlə əlaqədar təhqiqatı davam etdirir. 22 yaşlı gənc qız nişanlısı tərəfindən qətlə yetirilibmi, yoxsa başqa birisi tərəfindən, istintaq bunları araşdırmalıdır.

**Məlahət**



# Boy uzadan yeməklər...

## Valideynlər uşaqların qidalanmasına ciddi fikir verməlidir

**Araşdırmalar göstərir ki, boy genetik olmaqla yanaşı istehlak olunan qidalardan, yuxu rejimindən və məşq vərdişlərindən də təsirlənir. Mütəxəssislər uşaqların boyunun böyüməsinə köməklik edən qidaların adlarını açıqlayıblar.**

Onlar bildiriblər ki, sağlam bir sümük quruluşunun meydana gəlməsi üçün kalsium və fosforla zəngin olan süd məhsulları mütəmadi olaraq istehlak edilməlidir. Qeyd olunub ki, uşaqlar gecə yatmazdan əvvəl bir stəkan süd içməlidir, çünki süd onların sümük inkişafına və boy artımına kömək edir. Ancaq vurğulanıb ki, inək südünün həddindən artıq istehlakından çəkinilməlidir. Gündə uşaqların ən çox 500 ml inək südü içməsi məqsədəuyğundur. Çünki böyük miqdarda inək südünün istehlak edilməsi bədəndəki kalsium-fosfor balansını pozur və bu da nəticədə sümüyün inkişafına mənfi təsir göstərir. Həmçinin, dəmir çatışmazlığına da səbəb ola bilər. Mütəxəssislər hesab edir ki, boy artımında ən vacib olan faktorlardan biri də D vitaminidir və onun hər gün qəbul edilməsi labüddür. Diqqətə çatdırılıb ki, alabalıq, somon, uskumru və orkinos kimi yağlı balıqların ətləri D vitamini ilə zəngin olduğu üçün onların uşaqlara verilməsi çox faydalıdır. Həmçinin, mal əti, qaraciyər, pendir və yumurta da D vitamini ilə zəngindir. Mütəxəssislər bədənimiz D vitamininin böyük bir hissəsini günəşdən aldığı üçün uşaqların günəşin çox dik olmadığı vaxtlarda ən az 15-20 dəqiqə günəşlənmə qəbul etməsinə diqqət yetirilməsinin vacib olduğunu qeyd ediblər: "Vücudumuzun kalsium və D vitamini metabolizmasının düzgün işləməsi üçün kifayət qədər maqneziuma ehtiyacı var. Uşaqların pəhrizində maqnezium qaynaqlarını mütəmadi olaraq saxlamaqla onların sümük inkişafına və boy artımına kömək etmək olar. Yaşıl mərcimək ən yaxşı maqnezium qaynaqlarından biridir. Digər maqnezium mənbələri ispanaq, brokoli, ənginar, uskumru, tünd şokolad və pomidordur. Fındıq, fıstıq, qoz, badam kimi fındıqlar ən yaxşı sink mənbəyidir və sağlamlıq üçün faydalı olan yağ turşularını özündə ehtiva edir. Araşdırmalar göstərir ki, sink əskikliyi daha çox boyu qısa olan uşaqlarda olur. Övladlarınızın qəlyanaltılarına qoz-fındıq əlavə edə bilərsiniz. Bu yolla qısa boy riskini azaldacaqsınız. Həmçinin, qoz-fındıq yüksək enerji dəyəri olan sağlam bir qəlyanaltı olduğundan uşağınızın qan şəkərini tarazlayaraq, lazımsız qidalara və sağlam olmayan qidalara çevrilməsinin qarşısını ala bilər".

**Aynurə Pənahqızı**



## Sirli krallıq...

### Bura ancaq zəngin turistlər gələ bilər

**Butan Çin və Hindistan arasında yerləşən, haqqında çox az bilinən və dünyanın ən dağlıq coğrafiyasında yerləşən bir krallıqdır.**

Təbiəti və məbədləri ilə diqqəti cəlb edən Butan turistləri çox da arzulanmır. Dağlar arasında yerləşən sirli krallıq Butan mümkün qədər az və zəngin turist qəbul etməyə üstünlük verir. Butan krallıq tərəfindən idarə olunan dağlıq və çox qədim tarixə malik olan bir ölkədir. Bu kiçik səltənət sirlər və bilinməyənlərlə doludur. Himalay dağlarını əhatə edən ölkə çox kobud bir əraziyə malikdir. Buna görə də əhalisi çox seyrəkdir. Butan 700 min insanın yaşadığı bir ölkədir və əhalinin 54 faizi gənclərdən ibarətdir. Butanın paytaxtı Thimphudur. Butanın ərazisi 38394 kvadrat kilometrdir. Butan, eyni zamanda dünyanın ən çox əhalisi olan iki ölkə - Hindistan və Çinin arasındadır. Ərazisi kobud olan ölkədə nəqliyyat da çox çətindir. Buna görə də ölkəyə turist kimi səfər etmək istəyənlərə yalnız qrup şəklində icazə verilir. Üstəlik, ölkəyə daxil olan hər bir turist gündə minimum 250 dollar xərcləyə biləcək bir büdcəyə sahib olmalıdır. Yəni daha az pul xərcləməyi düşünürsünüzsə, Butan sizin üçün elə bir ölkə deyil. Butanda Ngultrum və Hindistan rupisi pul kimi istifadə olunur. Butan dağlıq ölkə olduğundan burayla əlaqə yalnız nəqliyyat yolu ilə təmin olunur. Ölkədə dəmir yolu xətti yoxdur. Butanda İngiltərədəki kimi avtomobillər yollarda sol tərəflə idarə olunur. Ölkəyə girərkən bununla bağlı xəbərdarlıq nişanları ilə rastlaşmaq mümkündür.

**Aynurə Pənahqızı**